*2023-cü il 7 mart vəziyyəti ilə*

# Gürcüstan Konstitusiyası

Biz, sarsılmaz (dönməz) iradəsi demokratik ictimai quruluş, iqtisadi azadlıq, sosial və hüquqi dövlət qurmaq, hamılıqla tanınmış insan hüquq və azadlıqlarını təmin etmək, dövlət müstəqilliyini və digər xalqlarla sülh münasibətlərini möhkəmləndirmək olan Gürcüstan vətəndaşları, gürcü xalqının çoxəsrlik dövlətçilik ənənələrinə və Gürcüstanın 1921-ci il Konstitusiyasının tarixi-hüquqi irsinə əsaslanaraq, bu konstitusiyanı Allah və ölkə qarşısında bəyan edirik.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

## Birinci fəsil. Ümumi müddəalar

### Maddə 1. Dövlət suverenliyi

1. Gürcüstan müstəqil, vahid və bölünməz dövlətdir, bunu 1991-ci il martın 31-də ölkənin bütün ərazisində, o cümlədən Abxaziya MSSR-da və keçmiş Cənubi Osetiya Muxtar Dairəsində keçirilmiş referendum və 9 aprel 1991-ci il tarixli "Gürcüstanın dövlət müstəqilliyinin bərpası haqqında" Akt təsdiq edir.
2. Gürcüstan dövlətinin ərazisi 21 dekabr 1991-ci il tarixindəki vəziyyət etibarilə müəyyən edilmişdir. Gürcüstanın ərazi bütövlüyü və dövlət sərhədinin toxunulmazlığı Gürcüstanın Konstitusiyası və qanunları ilə təsdiqlənmiş, dünya dövlətlər birliyi və beynəlxalq təşkilatlar tərəfindən tanınmışdır. Gürcüstan dövlətinin ərazisinin özgəninkiləşdirilməsi qadağandır. Dövlət sərhədi yalnız qonşu dövlətlə bağlanmış ikitərəfli razılaşma ilə dəyişdirilə bilər.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

### Maddə 2. Dövlət rəmzləri

1. Gürcüstan dövlətinin adı „Gürcüstan"-dır.
2. Gürcüstanın paytaxtı Tbilisidir.
3. Gürcüstanın dövlət dili gürcü dili, Abxaziya Muxtar Respublikasında isə − həm də abxaz dilidir. Dövlət dili üzvi qanunla qorunur.
4. Gürcüstanın dövlət bayrağı, gerbi və himni üzvi qanunla müəyyən edilib, hansı ki Konstitusiyanın yenidən nəzərdən keçirilməsi üçün müəyyən edilmiş qaydada yenidən nəzərdən keçiriləcək.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

### Maddə 3. Demokratiya

1. Gürcüstan demokratik respublikadır.
2. Dövlət hakimiyyətinin mənbəyi xalqdır. Xalq gücünü öz nümayəndələri vasitəsilə, həmçinin referendum və bilavasitə demokratiyanın digər formaları vasitəsilə həyata keçirir.
3. Heç kimin hakimiyyəti qəsb etməyə ixtiyarı (hüququ) yoxdur. Konstitusiyaya və ya qanuna görə, ümumi seçkilərdə seçilmiş orqanın cari səlahiyyət müddətinin azaldılması və ya artırılması yolverilməzdir.
4. Siyasi partiyalar xalqın siyasi iradəsinin formalaşmasında və həyata keçirilməsində iştirak edirlər. Siyasi partiyaların fəaliyyəti onların azadlıq, bərabərlik, şəffaflıq və partiyadaxili demokratiya prinsiplərinə əsaslanır.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 4. Hüquqi dövlət**

1. Gürcüstan hüquqi dövlətdir.

2. Dövlət hamılıqla tanınmış insan hüquq və azadlıqlarını labüd (qaçılmaz) və ali insani (bəşəri) dəyərlər kimi tanıyır və qoruyur. Hakimiyyəti həyata keçirərkən xalq və dövlət bilavasitə tətbiq olunan qanun kimi bu hüquq və azadlıqlarla məhdudlaşdırılırlar. Konstitusiya insanın burada qeyd olunmayan, lakin öz-özünə konstitusiyanın prinsiplərindən irəli gələn (qaynaqlanan), hamılıqla tanınmış hüquq və azadlıqlarını inkar etmir.

3. Dövlət hakimiyyəti hakimiyyətin bölünməsi prinsipi əsasında həyata keçirilir.

4. Dövlət hakimiyyəti konstitusiya və qanunla müəyyən edilmiş çərçivədə həyata keçirilir. Gürcüstan Konstitusiyası dövlətin ali qanunudur. Qanunvericilik aktlarının və digər normativ aktların qəbulunun və buraxılmasının (nəşrinin) ümumi qaydası və onların iyerarxiyası üzvi qanunla müəyyən edilir.

5. Gürcüstan qanunvericiliyi beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına uyğundur. Gürcüstanın beynəlxalq müqaviləsi, əgər o, Gürcüstan Konstitusiyasına və ya konstitusiya sazişinə zidd deyilsə, ölkədaxili normativ aktlardan daha üstün hüquqi qüvvəyə malikdir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 5. Sosial dövlət**

1. Gürcüstan sosial dövlətdir.

2. Dövlət cəmiyyətdə sosial ədalət, sosial bərabərlik və sosial həmrəylik prinsiplərinin möhkəmləndirilməsinin qayğısına qalır.

3. Dövlət ölkənin bütün ərazisində bərabər sosial-iqtisadi və demoqrafik inkişafın qayğısına qalır. Qanun yüksək dağlıq regionların inkişafı üçün xüsusi şərait yaradır.

4. Dövlət insanların sağlamlığının və sosial müdafiəsinin, yaşayış minimumunun və layiqli mənzil ilə təmin edilməsinin, ailənin rifahının qorunmasının qayğısına qalır. Dövlət vətəndaşın işlə təmin olunmasında dəstək olur. Yaşayış minimumunun təmin edilməsi şərtləri qanunla müəyyən edilir.

5. Dövlət ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan rasional istifadənin qayğısına qalır.

6. Dövlət milli dəyərlərin və özünəməxsusluğun, mədəni irsin qorunmasına, təhsilin, elmin və mədəniyyətin inkişafına qayğı göstərir.

7. Dövlət idmanın inkişafına, sağlam həyat tərzinin bərqərar olmasına, uşaqların və gənclərin bədən tərbiyəsinə və onların idmana cəlb edilməsinə qayğı göstərir.

8. Dövlət xaricdə yaşayan soydaşların (həmvətənlərin) vətəni ilə əlaqələrinin qorunub saxlanmasının və inkişaf etdirilməsinin qayğısına qalır.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 6. İqtisadi azadlıq**

1. İqtisadi azadlıq tanınmış və təmin edilmişdir.

2. Dövlət azad və açıq iqtisadiyyatın, azad sahibkarlığın və rəqabətin inkişafına qayğı göstərir.

3. Özəl (xüsusi) mülkiyyət üzrə ümumi hüququn ləğvi yolverilməzdir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 7. Ərazi təşkilinin əsasları**

1. Gürcüstanın ali dövlət orqanlarının xüsusi idarəçiliyinə aiddir:

a) insan hüquqları, Gürcüstan vətəndaşlığı, miqrasiya, ölkəyə giriş və ölkədən çıxış, başqa dövlətlərin vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin Gürcüstanda müvəqqəti və ya daimi qalmaları haqqında qanunvericilik;

b) cinayət hüququ, cəzaçəkmə (penitensiar), mülki hüquq, intellektual mülkiyyət, inzibati hüquq, əmək hüququ, prosessual qanunvericiliyi; torpaq, faydalı qazıntılar və digər təbii sərvətlər haqqında qanunvericilik; əczaçılıq (dərman vasitələri) qanunvericiliyi; təhsil müəssisəsi statusunun əldə edilməsi,

akkreditasiya və akademik dərəcələr haqqında qanunvericilik; Milli Elmlər Akademiyası haqqında qanunvericilik;

q) xarici siyasət və beynəlxalq əlaqələr; xarici ticarət, gömrük və tarif rejimləri;

d) dövlətin müdafiəsi, hərbi sənaye və silah ticarəti; müharibə və sülh məsələləri; fövqəladə və hərbi vəziyyətin hüquqi rejiminin müəyyən edilməsi və tətbiqi; Silahlı Qüvvələr; məhkəmələr və prokurorluq; dövlət təhlükəsizliyi; kriminal polis və istintaq; dövlət sərhədinin statusu, rejimi və mühafizəsi; sərhəd-sanitariya kordonu;

e) dövlət maliyyəsi və dövlət borcu; pulun zərb edilməsi (kəsmək) və emissiyası; bank, kredit, sığorta, vergi və dövlət əhəmiyyəti kəsb edən ticarət qanunvericiliyi;

v) dövlət əhəmiyyəti kəsb edən dəmir yolları və avtomobil yolları; vahid enerji sistemi və rejimi; rabitə (kommunikasiya); ərazi sularının, hava məkanının, kontinental şelfin (qitə şelfinin), xüsusi iqtisadi zonanın statusları və onların mühafizəsi; aviasiya; ticarət donanması; gəmilərin bayraqları; dövlət əhəmiyyəti kəsb edən limanlar; okeanda və açıq dənizdə balıq ovu; meteorologiya; ətraf mühitin vəziyyətinə nəzarət (müşahidə) sistemi; standartlar və etalonlar; geodeziya və xəritəçilik; dəqiq vaxtın müəyyən edilməsi; dövlət statistikası.

2. Abxaziya Muxtar Respublikasının və Acarıstan Muxtar Respublikasının səlahiyyətləri və onların həyata keçirilməsi qaydası Gürcüstan Konstitusiyasının ayrılmaz hissəsi olan Gürcüstanın konstitusiya qanunları ilə müəyyən edilir.

3. Gürcüstanın ərazi dövlət təşkili (quruluşu) - ölkənin bütün ərazisində Gürcüstanın yurisdiksiyası tam bərpa edildikdən sonra, Gürcüstanın konstitusiya qanunu ilə, səlahiyyətlərin ayrılması prinsipi əsasında, yenidən nəzərdən keçiriləcək.

4. Gürcüstan vətəndaşları yerli əhəmiyyət kəsb edən işləri yerli özünüidarəetmə vasitəsilə Gürcüstan qanunvericiliyinə uyğun olaraq həll edirlər. Dövlət hakimiyyəti və özünüidarəetmə vahidlərinin səlahiyyətlərinin ayrılması subsidiarlıq prinsipinə əsaslanır. Dövlət, özünüidarəetmə vahidinin maliyyə vəsaitlərinin üzvi qanunla müəyyən edilmiş özünüidarəetmə vahidinin səlahiyyətlərinə uyğunluğunu təmin edir.

5. Üzvi qanuna əsasən, Anakliada xüsusi hüquqi rejimin tətbiq edildiyi xüsusi iqtisadi zona yaradılır. Xüsusi hüquqi rejimli digər xüsusi iqtisadi zonalar da üzvi qanunla yaradıla bilər.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

### Maddə 8. Dövlət və Gürcüstanın Apostol Avtokefal Pravoslav Kilsəsi arasında münasibətlər

Etiqad (inanc) və din azadlığı ilə yanaşı, dövlət Gürcüstanın Apostol Avtokefal Pravoslav Kilsəsinin Gürcüstan tarixində xüsusi rolunu və onun dövlətdən müstəqilliyini tanıyır. Gürcüstan Dövləti və Gürcüstanın Apostol Avtokefal Pravoslav Kilsəsi arasında münasibətlər konstitusiya sazişi ilə müəyyən edilir, hansı ki insan hüquq və azadlıqları sahəsində beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına tam uyğun olmalıdır.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

## İkinci fəsil. Əsas (təməl) insan hüquqları

### Maddə 9. İnsan ləyaqətinin toxunulmazlığı

1. İnsan ləyaqəti toxunulmazdır və o, dövlət tərəfindən qorunur.

2. İnsan işgəncəsi, qeyri-insani və ya alçaldıcı rəftar, qeyri-insani və ya alçaldıcı cəza tətbiqi yolverilməzdir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

### Maddə 10. Yaşamaq və fiziki toxunulmazlıq hüquqları

1. İnsan həyatı qorunur. Ölüm cəzası qadağandır.

2. İnsanın fiziki toxunulmazlığı qorunur.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 11. Bərabərlik hüququ**

1. Bütün insanlar qanun qarşısında bərabərdir. İrqinə, dərisinin rənginə, cinsinə, mənşəyinə, etnik mənsubiyyətinə, dilinə, dininə, siyasi və ya digər baxışlarına, sosial mənsubiyyətinə, əmlakına və ya rütbəsinə, yaşayış yerinə və ya digər əlamətlərə görə ayrı-seçkilik qadağandır.

2. Beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına və Gürcüstan qanunvericiliyinə uyğun olaraq, Gürcüstan vətəndaşları onların etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq, heç bir ayrı-seçkilik olmadan öz mədəniyyətlərini qoruyub saxlamaq və inkişaf etdirmək, şəxsi həyatlarında və ya ictimai yerlərdə ana dilindən istifadə etmək hüququna malikdirlər.

3. Dövlət kişilər və qadınlar üçün bərabər hüquqlar və imkanlar təmin edir. Dövlət kişi və qadınların əsaslı bərabərliyini təmin etmək və bərabərsizliyi aradan qaldırmaq üçün xüsusi tədbirlər görür.

4. Dövlət əlilliyi olan şəxslərin hüquq və maraqlarının reallaşdırılması üçün xüsusi şərait yaradır.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 12. Şəxsiyyətin azad (sərbəst) inkişaf hüququ**

Hər kəs öz şəxsiyyətini sərbəst inkişaf etdirmək hüququna malikdir.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 13. İnsan azadlığı**

1. İnsan azadlığı qorunur.

2. Azadlıqdan məhrumetməyə və ya azadlığın başqa cür məhdudlaşdırılmasına yalnız məhkəmənin qərarı ilə yol verilir.

3. Şəxsin həbs edilməsinə qanunla səlahiyyət verilmiş şəxs tərəfindən, qanunla müəyyən edilmiş hallarda yol verilir. Həbs edilmiş şəxs 48 saatdan gec olmayaraq yurisdiksiya üzrə məhkəmə qarşısına çıxarılmalıdır. Əgər növbəti 24 saat ərzində məhkəmə dustaqlıq və ya azadlığın başqa cür məhdudlaşdırılması haqqında qərar qəbul etməzsə, şəxs dərhal azad edilməlidir.

4. Həbs edildikdən dərhal sonra şəxsə onun hüquqları və həbsin əsası izah edilməlidir. Həbs edildikdən dərhal sonra şəxs vəkilin köməyini tələb edə bilər, bu da təmin edilməlidir.

5. Təqsirləndirilən şəxsin dustaqlıq (həbs) müddəti 9 aydan çox olmamalıdır.

6. Bu maddənin tələblərinin pozulması qanunla cəzalandırılır. Azadlığı qanunsuz olaraq məhdudlaşdırılan şəxsin təzminat almaq hüququ var.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 14. Hərəkət (gediş-gəliş) azadlığı**

1. Gürcüstanda qanuni olaraq olan hər kəsin ölkənin bütün ərazisində sərbəst hərəkət etmək (gediş-gəliş), yaşayış yerini sərbəst seçmək və Gürcüstanı sərbəst tərk etmək hüququ var.

2. Bu hüquqların məhdudlaşdırılmasına yalnız qanuna uyğun olaraq, demokratik cəmiyyətdə zəruri olan dövlət təhlükəsizliyinin və ya ictimai təhlükəsizliyin təmin edilməsi, sağlamlığın qorunması və ya ədalət mühakiməsinin həyata keçirilməsi məqsədi ilə yol verilir.

3. Gürcüstan vətəndaşı Gürcüstana sərbəst daxil ola bilər.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 15. Şəxsi və ailə həyatının, şəxsi məkanın və ünsiyyətin toxunulmazlığı hüquqları**

1. İnsanın şəxsi və ailə həyatı toxunulmazdır. Bu hüququn məhdudlaşdırılmasına yalnız qanuna uyğun olaraq, demokratik cəmiyyətdə zəruri olan dövlət təhlükəsizliyinin və ya ictimai təhlükəsizliyin təmin edilməsi və ya başqalarının hüquqlarının müdafiəsi məqsədi ilə yol verilir.

2. İnsanın şəxsi məkanı və ünsiyyəti toxunulmazdır. Heç kəsin mülkiyyətçinin iradəsi əleyhinə yaşayış sahəsinə və ya digər əmlaka daxil olmaq, habelə axtarış aparmaq hüququ yoxdur. Bu hüquqların məhdudlaşdırılmasına yalnız qanuna uyğun olaraq, demokratik cəmiyyətdə zəruri olan dövlət təhlükəsizliyinin və ya ictimai təhlükəsizliyin təmin edilməsi və ya başqalarının hüquqlarının müdafiəsi məqsədi ilə, qanunla nəzərdə tutulmuş təcili (təxirəsalınmaz) zərurət yarandıqda, məhkəmənin qərarı ilə və ya onsuz, yol verilir. Təcili (təxirəsalınmaz) zərurət yarandıqda hüququn məhdudlaşdırılması barədə 24 saatdan gec olmayaraq məhkəməyə məlumat verilməlidir, hansı ki müraciət edildikdən sonra 24 saatdan gec olmayaraq məhdudlaşdırmanın qanuniliyini təsdiq edir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 16. Etiqad (inanc), din və vicdan azadlıqları**

1. Hər bir insanın etiqad (inanc), din və vicdan azadlığı var.

2. Bu hüquqların məhdudlaşdırılmasına yalnız qanuna uyğun olaraq, demokratik cəmiyyətdə zəruri olan ictimai təhlükəsizliyin təmin edilməsi, sağlamlığın və ya başqalarının hüquqlarının müdafiəsi məqsədi ilə yol verilir.

3. İnsanı etiqadına (inancına), dininə və ya vicdanına görə təqib etmək, habelə onlar haqqında öz fikrini (baxışını) bildirməyə onu məcbur etmək yolverilməzdir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 17. Fikir, məlumat, kütləvi informasiya vasitələri və internet azadlığı hüquqları**

1. Fikir və onu ifadə etmək azadlığı qorunur. İnsanı fikrinə və onu ifadə etməsinə görə təqib etmək yolverilməzdir.

2. Hər bir insanın sərbəst şəkildə məlumat almaq və yaymaq hüququ var.

3. Kütləvi informasiya vasitələri azaddır. Senzuraya yol verilmir. Dövlətin və ya ayrı-ayrı şəxslərin kütləvi informasiyanı və ya onun yayılması vasitələrini inhisara almaq (monopoliya) hüququ yoxdur.

4. Hər kəsin internetə daxil olmaq və ondan sərbəst istifadə etmək hüququ var.

5. Bu hüquqların məhdudlaşdırılmasına yalnız qanuna uyğun olaraq, demokratik cəmiyyətdə zəruri olan dövlət təhlükəsizliyini və ya ictimai təhlükəsizliyi və ya ərazi bütövlüyünü təmin etmək, başqalarının hüquqlarını müdafiə etmək, məxfi kimi (konfidensial) tanınmış məlumatın açıqlanmasının qarşısını almaq və ya məhkəmənin müstəqilliyini və qərəzsizliyini (neytrallığını) təmin etmək üçün yol verilir.

6. Qanun ictimai yayımçının (televiziyanın) dövlət qurumlarından müstəqilliyini, siyasi təsirdən və əhəmiyyətli kommersiya təsirindən azad olmağını təmin edir.

7. Media plüralizminin qorunmasını, kütləvi informasiya vasitələrində fikir ifadəsi azadlığının reallaşdırılmasını, kütləvi informasiyanın və ya onun yayılması vasitələrinin inhisarlaşdırılmasının qarşısının alınmasını təmin etmək, habelə yayım və elektron rabitə sahəsində istehlakçıların və sahibkarların hüquqlarını qorumaq üçün yaradılmış milli tənzimləyici orqanın institusional və maliyyə müstəqilliyinə qanunla zəmanət verilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 18. Ədalətli inzibati icraat, ictimai informasiyaya əlçatanlıq, informasiya xarakterli öz müqəddəratını təyinetmə və dövlət orqanları tərəfindən vurulmuş zərərin ödənilməsi hüquqları**

1. Hər kəsin inzibati orqan tərəfindən ağlabatan müddət ərzində onunla bağlı işə ədalətli baxılması hüququ var.

2. Hər kəsin qanunla müəyyən edilmiş qaydada dövlət qurumunda onun haqqında mövcud olan və ya digər məlumat və ya rəsmi sənədlə tanış olmaq hüququ var, o haldan başqa – nə vaxt ki onun içərisində kommersiya və ya peşə sirri var və ya demokratik cəmiyyətdə zəruri olan dövlət təhlükəsizliyinin və ya ictimai təhlükəsizliyin və ya hüquq icraatının maraqlarını qorumaq üçün qanunla və ya qanunla müəyyən edilmiş qaydada dövlət sirri kimi tanınmışdır.

3. İnsanın sağlamlığı, maliyyəsi və ya digər şəxsi məsələləri ilə bağlı rəsmi qeydlərdəki (yazılardakı) məlumatlar həmin insanın özünün razılığı olmadan heç kimə əlçatan (açıq) olmamalıdır, qanunla nəzərdə tutulmuş hallardan başqa – nə vaxt ki bu, dövlət təhlükəsizliyini və ya ictimai təhlükəsizliyi təmin etmək üçün, ictimai maraqları, sağlamlığı və ya başqalarının hüquqlarını qorumaq üçün zəruridir.

4. Hər kəsə dövlət, muxtar respublika və ya yerli özünüidarəetmə orqanı və ya işçisi (qulluqçusu) tərəfindən qanunsuz olaraq vurulmuş zərərin məhkəmə qaydasında müvafiq dövlət, muxtar respublika və ya yerli özünüidarəetmə vəsaitləri hesabına tam ödənilməsinə zəmanət verilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 19. Mülkiyyət hüququ**

1. Mülkiyyət və vərəsəlik (miras) hüququ tanınmışdır və təmin edilmişdir.

2. İctimai maraqlar üçün bu hüququn qanunla müəyyən edilmiş hallarda və müəyyən edilmiş qaydada məhdudlaşdırılmasına yol verilir.

3. Zəruri ictimai ehtiyac üçün mülkiyyətin müsadirəsinə qanunla birbaşa nəzərdə tutulmuş hallarda, məhkəmənin qərarı ilə və ya üzvi qanunla müəyyən edilmiş təcili (təxirəsalınmaz) zərurət olduqda, qabaqcadan, tam və ədalətli təzminat (kompensasiya) ödənilməklə yol verilir. Təzminat hər cür vergi və rüsumlardan azad olunur.

4. Kənd-təsərrüfatı təyinatlı torpaqlar xüsusi əhəmiyyət kəsb edən resurs kimi, yalnız dövlətin, özünüidarəetmə vahidinin, Gürcüstan vətəndaşının və ya Gürcüstan vətəndaşlarının birliyinin mülkiyyətində ola bilər. İstisnalar Parlamentin tam tərkibinin ən azı üçdə ikisinin səs çoxluğu ilə qəbul edilən üzvi qanunla müəyyən edilə bilər.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 20. Yaradıcılıq azadlığı, mədəni irs**

1. Yaradıcılıq azadlığı təmin edilmişdir. İntellektual mülkiyyət hüququ qorunur.

2. Yaradıcılıq prosesinə müdaxiləyə, yaradıcılıq fəaliyyəti sahəsində senzuraya yol verilmir.

3. Yaradıcılıq əsərinin yayılmasının qadağan edilməsinə, əsərin yayılması başqalarının hüquqlarını pozduqda, yalnız məhkəmənin qərarı ilə yol verilir.

4. Hər kəsin mədəni irsin qorunmasına qayğı göstərmək hüququ var. Mədəni irs qanunla qorunur.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 21. Toplaşmaq azadlığı**

1. Müdafiə Qüvvələrinin və ya dövlət təhlükəsizliyinin və ya ictimai təhlükəsizliyin qorunmasına cavabdeh olan (məsuliyyət daşıyan) orqanın tərkibində olan şəxslərdən başqa, hər kəsin əvvəlcədən icazə almadan açıq və silahsız toplaşmaq hüququ var.

2. Toplantı (yığıncaq) xalqın (insanların) və ya nəqliyyatın hərəkət etdiyi yerdə keçirilərsə, hakimiyyətə əvvəlcədən xəbərdarlıq etmək zərurəti qanunla müəyyən edilə bilər.

3. Hakimiyyət toplantını (yığıncağı) yalnız qanuna zidd xarakter aldığı halda dayandıra bilər.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 22. Birlik (birləşmək) azadlığı**

1. Birləşmək azadlığı təmin edilmişdir.

2. Birlik, qanunla müəyyən edilmiş hallarda və müəyyən edilmiş qaydada, yalnız həmin birliyin və ya məhkəmənin qərarı ilə ləğv edilə bilər.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 23. Siyasi partiyaların azadlığı**

1. Gürcüstan vətəndaşlarının üzvi qanuna uyğun olaraq siyasi partiya yaratmaq və onun fəaliyyətində iştirak etmək hüququ var.

2. Müdafiə Qüvvələrinin və ya dövlət təhlükəsizliyinin və ya ictimai təhlükəsizliyin qorunmasına cavabdeh olan (məsuliyyət daşıyan) orqanın tərkibinə yazılacaq (qoşulacaq) şəxsin, hakim təyin ediləcək şəxsin siyasi partiya üzvlüyünə xitam verilir.

3. Məqsədi Gürcüstanın konstitusiya quruluşunu devirmək və ya zorakılıqla dəyişdirmək, ölkənin müstəqilliyinə xələl gətirmək, ərazi bütövlüyünü pozmaq olan və ya müharibə və ya zorakılığın təbliği ilə məşğul olan, milli, etnik, regional, dini və ya sosial qarşıdurmanı (nifrəti) qızışdıran siyasi partiyanın yaradılması və fəaliyyəti yolverilməzdir. Ərazi əlaməti (nişanı) ilə siyasi partiyanın yaradılması yolverilməzdir.

4. Siyasi partiya üzvi qanunla müəyyən edilmiş hallarda və müəyyən edilmiş qaydada yalnız Konstitusiya Məhkəməsinin qərarı ilə qadağan edilə bilər.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 24. Seçki hüququ**

1. Gürcüstanın 18 yaşına çatmış hər bir vətəndaşının referendumda, dövlət, muxtar respublika və yerli özünüidarəetmə orqanlarının seçkilərində iştirak etmək hüququ var. Seçicinin öz iradəsini sərbəst (azad) ifadə etməsi təmin edilmişdir.

2. O vətəndaşın seçkilərdə və referendumda iştirak etmək hüququ yoxdur, hansı ki məhkəmənin hökmü ilə, xüsusilə ağır cinayətə görə cəzaçəkmə müəssisəsindədir və ya məhkəmənin qərarı ilə, dəstək alan şəxs kimi tanınmışdır və müvafiq stasionar tibb müəssisəsinə yerləşdirilmişdir.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 25. Dövlət vəzifəsi tutmaq hüququ**

1. Gürcüstanın hər bir vətəndaşının, qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verdiyi təqdirdə, istənilən dövlət vəzifəsini tutmaq hüququ var. Dövlət qulluğunun (xidmətinin) şərtləri qanunla müəyyən edilir.

2. Eyni zamanda başqa dövlətin vətəndaşı olan Gürcüstan vətəndaşı Gürcüstanın Prezidenti, Baş naziri və ya Parlamentin sədri vəzifəsini tuta bilməz.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 26. Əmək azadlığı, peşə ittifaqlarının azadlığı, tətil etmək hüququ və sahibkarlıq azadlığı**

1. Əmək azadlığı təmin edilmişdir. Hər kəsin sərbəst şəkildə iş seçmək hüququ var. Təhlükəsiz iş (əmək) şəraiti hüququ və digər əmək hüquqları üzvi qanunla qorunur.

2. Hər kəsin üzvi qanuna uyğun olaraq peşə ittifaqı yaratmaq və ona üzv olmaq (onda birləşmək) hüququ var.

3. Tətil etmək hüququ tanınmışdır. Bu hüququn həyata keçirilməsinin şərtləri və qaydası üzvi qanunla müəyyən edilir.

4. Sahibkarlıq azadlığı təmin edilmişdir. Qanunla yol verilən hallar istisna olmaqla, inhisarçılıq (monopoliya) fəaliyyəti qadağandır. İstehlakçıların hüquqları qanunla qorunur.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 27. Təhsil hüququ və akademik azadlıq**

1. Hər kəsin təhsil almaq və onun formasını seçmək hüququ var.

2. Məktəbəqədər tərbiyə və təhsil qanunla müəyyən edilmiş qaydada təmin edilmişdir. İbtidai və təməl (əsas) təhsil məcburidir. Ümumi təhsil qanunla müəyyən edilmiş qaydada dövlət tərəfindən tam maliyyələşdirilir. Vətəndaşların qanunla müəyyən edilmiş qaydada dövlət tərəfindən maliyyələşdirilməklə peşə və ali təhsil almaq hüququ var.

3. Akademik azadlıq və ali təhsil müəssisələrinin muxtariyyəti təmin edilmişdir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 28. Sağlamlığın qorunması hüququ**

1. Vətəndaşın əlverişli (sərfəli) və keyfiyyətli səhiyyə xidmətləri almaq hüququ qanunla təmin edilmişdir.

2. Dövlət bütün səhiyyə müəssisələrinə və tibbi xidmətin keyfiyyətinə nəzarət edir, əczaçılıq məhsullarının istehsalını və dərman vasitələrinin dövriyyəsini tənzimləyir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 29. Ətraf mühitin qorunması hüququ**

1. Hər kəsin sağlamlıq üçün zərərsiz mühitdə yaşamaq, təbii mühitdən və ictimai məkandan istifadə etmək (bəhrələnmək) hüququ var. Hər kəsin ətraf mühitin vəziyyəti haqqında vaxtında tam məlumat almaq hüququ var. Hər kəsin ətraf mühitin qorunmasının qayğısına qalmaq hüququ var. Ekoloji məsələlərlə bağlı qərarların qəbul edilməsində iştirak etmək hüququ qanunla təmin edilmişdir.

2. İndiki və gələcək nəsillərin maraqları nəzərə alınmaqla ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən rasional istifadə qanunla təmin edilmişdir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 30. Evlənmək hüququ, ana və uşaq hüquqları**

1. Ailə qurmaq məqsədi ilə kişi və qadının birliyi kimi nikah (evlilik) ər-arvadın hüquqi bərabərliyinə və azad (könüllü) iradəsinə əsaslanır.

2. Anaların və uşaqların hüquqları qanunla qorunur.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 31. Prosessual hüquqlar**

1. Hər bir insanın öz hüquqlarını qorumaq üçün məhkəməyə müraciət etmək hüququ var. İşə ədalətli və vaxtında baxılması hüququ təmin edilmişdir.

2. Hər bir insanı yalnız o məhkəmə mühakimə etməlidir, hansının ki yurisdiksiyasına onun işi tabedir.

3. Müdafiə hüququna zəmanət verilmişdir. Hər kəsin öz hüquqlarını məhkəmədə şəxsən və ya vəkil vasitəsilə, habelə qanunla müəyyən edilmiş hallarda − nümayəndə vasitəsilə müdafiə etmək hüququ var. Vəkilin hüquqlarının maneəsiz həyata keçirilməsi və vəkillərin özünü təşkil etmək hüququna qanunla zəmanət verilmişdir.

4. Təqsirləndirilən şəxs öz şahidlərinin ittiham tərəfinin şahidləri ilə eyni şərtlərdə (eyni şəraitdə) çağırılmasını və dindirilməsini tələb etmək hüququna malikdir.

5. İnsan onun təqsiri (günahı) qanunla müəyyən edilmiş qaydada, məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü ilə sübuta yetirilənə qədər təqsirsiz (günahsız) sayılır.

6. Heç kim öz günahsızlığını sübut etməyə borclu deyil. İttihamı sübut etmək vəzifəsi ittihamçının (prokurorun) üzərinə düşür.

7. Şəxsin təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilməsi haqqında qərar əsaslandırılmış ehtimala, ittiham hökmü isə − təkzibedilməz (danılmaz) sübutlara əsaslanmalıdır (söykənməlidir).

Qanunla müəyyən edilmiş qaydada sübuta yetirilməyən (təsdiqlənməyən) hər cür şübhə təqsirləndirilən şəxsin xeyrinə həll edilməlidir.

8. Heç kəs eyni cinayətə görə təkrar məhkum edilə bilməz.

9. Törədildiyi zaman qanun pozuntusu sayılmayan əmələ görə heç kəs məsuliyyət daşımır. Qanun - məsuliyyəti yüngülləşdirmirsə və ya ləğv etmirsə, geriyə qüvvəsi yoxdur.

10. Qanun pozuntusu ilə əldə edilmiş sübutun hüquqi qüvvəsi yoxdur.

11. Heç kəs özünün və ya qanunla müəyyən edilmiş əhatə dairəsi olan yaxınlarının (qohumlarının) əleyhinə ifadə verməyə borclu deyil.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 32. Gürcüstan vətəndaşlığı**

1. Gürcüstan öz vətəndaşını onun harada yerləşməsindən asılı olmayaraq qoruyur.

2. Gürcüstan vətəndaşlığı doğum və ya naturalizasiya yolu ilə əldə edilir. Gürcüstan vətəndaşlığının əldə edilməsi və itirilməsi qaydası, başqa dövlətin vətəndaşına Gürcüstan vətəndaşlığının verilməsinin şərtləri və qaydası, Gürcüstan vətəndaşının başqa dövlətin vətəndaşlığına sahib olmasının şərtləri üzvi qanunla müəyyən edilir.

3. Vətəndaşlıqdan məhrum etməyə yol verilmir.

4. Gürcüstan vətəndaşının Gürcüstandan qovulması (sürgün edilməsi) yolverilməzdir.

5. Beynəlxalq müqavilədə nəzərdə tutulmuş hallar istisna olmaqla, Gürcüstan vətəndaşının başqa dövlətə köçürülməsinə (verilməsinə) yol verilmir. Vətəndaşın köçürülməsi (verilməsi) haqqında qərardan məhkəməyə şikayət verilə bilər.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 33. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları**

1. Gürcüstanda yaşayan başqa dövlətin vətəndaşları və vətəndaşlığı olmayan şəxslər, Konstitusiyada və qanunla nəzərdə tutulmuş istisnalardan başqa, Gürcüstan vətəndaşı ilə bərabər hüquq və vəzifələrə malikdirlər.

2. Dövlət - başqa dövlətin vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin siyasi fəaliyyətinə qanunla məhdudiyyət qoymaq səlahiyyətinə malikdir.

3. Beynəlxalq hüququn hamılıqla tanınmış normalarına uyğun olaraq, Gürcüstan, qanunla müəyyən edilmiş qaydada, başqa dövlətin vətəndaşlarına və vətəndaşlığı olmayan şəxslərə sığınacaq verir.

4. Beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına zidd olaraq Gürcüstandan şəxsin qovulmasına (sürgün edilməsinə) və ya ekstradisiyasına yol verilmir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 34. Əsas (təməl) insan hüquqlarının təmin edilməsinin ümumi prinsipləri**

1. Konstitusiyada göstərilən əsas insan hüquqları, onların məzmunu nəzərə alınmaqla, hüquqi şəxslərə də şamil edilir.

2. Əsas insan hüquqlarının həyata keçirilməsi başqalarının hüquqlarını pozmamalıdır.

3. Əsas insan hüququnun məhdudlaşdırılması onun nail olmaq üçün xidmət etdiyi qanuni məqsədin əhəmiyyətinə uyğun olmalıdır.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 35. Gürcüstanın Xalq Müdafiəçisi (Ombudsman)**

1. Gürcüstan ərazisində insan hüquqlarının qorunmasına Parlament tərəfindən tam tərkibin ən azı beşdə üçünün səs çoxluğu ilə 6 il müddətinə seçilən Gürcüstanın Xalq Müdafiəçisi nəzarət edir. Eyni şəxsin ardıcıl olaraq iki dəfə Xalq Müdafiəçisi seçilməsi yolverilməzdir.

2. Xalq Müdafiəçisinin fəaliyyətinə maneələrin yaradılması (əngəl törətmək) qanunla cəzalandırılır.

3. Xalq Müdafiəçisinin həbs edilməsi və ya dustaq olması, onun yaşayış yeri və ya iş yerində, avtomobilində axtarış və ya üzərində şəxsi axtarış aparmaq yalnız Parlamentin razılığı ilə həyata keçirilə bilər. Cinayət törədilərkən onu görmək (cinayətin üstünə çıxmaq) halı istisnadır, bu barədə dərhal Parlamentə məlumat verilməlidir. Parlament razılıq verməsə, Xalq Müdafiəçisi dərhal azad edilməlidir.

4. Xalq Müdafiəçisinin səlahiyyəti üzvi qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

## Üçüncü fəsil. Gürcüstan Parlamenti

### Maddə 36. Parlamentin statusu və səlahiyyətləri

1. Gürcüstan Parlamenti qanunvericilik hakimiyyətini həyata keçirən, ölkənin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyən edən, konstitusiya ilə müəyyən edilmiş hüdudlarda Hökumətin fəaliyyətinə nəzarət edən və digər səlahiyyətləri həyata keçirən, ölkənin ali nümayəndəlik orqanıdır.

2. Parlamentin iş qaydası Parlamentin üzvünün, komitəsinin və ya Parlament fraksiyasının təşəbbüsü əsasında Parlament tərəfindən tam tərkibin səs çoxluğu ilə qəbul edilən Parlamentin reqlamenti ilə müəyyən edilir. Reqlament qanun qüvvəsinə malikdir və onu Parlamentin sədri imzalayır və dərc edir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

### Maddə 37. Parlament seçkiləri

1. Gürcüstanın bütün ərazisi üzərində Gürcüstanın yurisdiksiyası tam bərpa edildikdən sonra Parlament iki palatadan: Respublika Şurası və Senatdan ibarət olacaq. Respublika Şurası proporsional qaydada seçilən üzvlərdən ibarətdir. Senat Abxaziya Muxtar Respublikası, Acarıstan Muxtar Respublikası və Gürcüstanın digər ərazi vahidlərindən seçilmiş üzvlərdən və Gürcüstan Prezidenti tərəfindən təyin olunan 5 üzvdən ibarətdir. Palataların tərkibi, səlahiyyətləri və seçki qaydası üzvi qanunla müəyyən edilir.

2. Bu maddənin birinci bəndində nəzərdə tutulmuş şərait yaradılmazdan əvvəl Parlament ümumi, azad, bərabər və birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə 4 il müddətinə çoxmandatlı vahid seçki dairəsi üzrə proporsional sistemlə seçilmiş 150 parlament üzvündən (deputatdan) ibarətdir.

3. Parlamentin növbəti seçkiləri Parlamentin səlahiyyət müddətinin başa çatdığı təqvim ilinin oktyabr ayının sonuncu şənbə günü keçirilir. Parlament buraxıldıqda seçkilər Parlament buraxıldıqdan sonra 45-ci gündən tez olmayaraq və 60-cı gündən gec olmayaraq keçirilir. Seçkilərin keçirilmə tarixi fövqəladə və ya hərbi vəziyyətlə üst-üstə düşərsə, seçkilər bu vəziyyətin ləğvindən sonra 45-ci gündən tez olmayaraq və 60-cı gündən gec olmayaraq keçirilir.

4. Ən azı 10 il Gürcüstanda yaşamış, 25 yaşından etibarən seçilmək hüququna malik olan Gürcüstan vətəndaşı Parlamentin üzvü seçilə bilər. Məhkəmənin hökmü ilə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxs Parlamentə üzv (deputat) seçilə bilməz.

5. Qanunla müəyyən edilmiş qaydada qeydiyyatdan keçmiş siyasi partiyanın Parlament seçkilərində iştirak etmək hüququ var, hansının ki seçkilər təyin edilərkən onun təqdimatı ilə seçilmiş Parlament üzvü (deputatı) var və ya hansına ki dəstək üzvi qanunla müəyyən edilmiş qaydada ən azı 25000 seçicinin imzası ilə təsdiqlənib.

6. Parlament üzvlərinin mandatları seçkilərdə iştirak edən seçicilərin real səslərinin ən azı 5 faizini toplamış siyasi partiyalara paylanacaq. Siyasi partiyanın qazandığı mandatların sayını müəyyən etmək üçün onun topladığı səslərin sayı 150-yə vurulur və seçkidə iştirak edən seçicilərin real səslərinin ən azı 5 faizini toplamış bütün siyasi partiyaların topladığı səslərin cəminə bölünür. Əldə edilən rəqəmin tam (bütün) hissəsi siyasi partiyanın qazandığı mandatların sayıdır. Siyasi partiyaların qazandığı mandatların sayının cəmi 150-dən az olduqda, daha yaxşı nəticə əldə etmiş siyasi partiyalar paylanmamış mandatları ardıcıllıqla (sıra ilə) alacaqlar.

7. Parlamentin seçilməsi qaydası üzvi qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*

*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 38. Parlamentin ilk iclası və səlahiyyətlərə xitam verilməsi**

Yeni seçilmiş Parlamentin ilk iclası Parlament seçkilərinin nəticələrinin rəsmi elan edilməsindən sonra 10-cu gündən gec olmayaraq keçirilir. İlk iclası Gürcüstan Prezidenti təyin edir. İlk (birinci) iclasda Parlamentin tam tərkibinin əksəriyyəti iştirak edərsə, Parlament işə başlamaq səlahiyyətinə malikdir. Parlament - Parlamentin üzvlərinin üçdə ikisinin səlahiyyəti tanındığı andan etibarən tam səlahiyyətə malik olur. Bu andan etibarən əvvəlki çağırış Parlamentinin səlahiyyətinə xitam verilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 39. Gürcüstan Parlamentinin üzvü**

1. Gürcüstan Parlamentinin üzvü bütün Gürcüstanın nümayəndəsidir, azad mandatdan istifadə edir və onun geri çağırılması yolverilməzdir.

2. Parlamentin üzvünün həbs edilməsi və ya dustaq olması, onun yaşayış yeri və ya iş yerində, avtomobilində axtarış və ya üzərində şəxsi axtarış aparmaq yalnız Parlamentin əvvəlcədən razılığı ilə həyata keçirilə bilər. Cinayət törədilərkən onu görmək (cinayətin üstünə çıxmaq) halı istisnadır, bu barədə dərhal Parlamentə məlumat verilməlidir. Parlament 48 saat ərzində razılıq verməsə, həbs edilmiş və ya dustaq olan Parlamentin üzvü (deputat) dərhal azad edilməlidir.

3. Parlamentin üzvünün o fakt haqqında ifadə verməmək hüququ var, hansını ki ona Parlamentin üzvü olduğuna görə etibar ediblər (məlum olub). Bu məsələ ilə bağlı yazılı materialın üzərinə qadağa qoyulmasına və ya götürülməsinə yol verilmir. Bu hüquq Parlamentin üzvünün səlahiyyətinə xitam verildikdən sonra da saxlanılır. Parlamentin üzvü öz vəzifəsini yerinə yetirərkən Parlamentdə və ya ondan kənarda söylədiyi fikirlərə görə hüquqi məsuliyyət daşımayacaq. Parlamentin üzvünün səlahiyyətlərinin rəvan (ləngimədən) həyata keçirilməsi üçün şərait təmin edilmişdir. Parlamentin üzvü qanunvericilik aktı ilə müəyyən edilmiş əmək haqqı (maaş) alır. Parlamentin üzvünün ərizəsi əsasında müvafiq dövlət orqanları onun şəxsi təhlükəsizliyini təmin edirlər. Parlamentin üzvünün səlahiyyətlərinin həyata keçirilməsinə maneələrin yaradılması qanunla cəzalandırılır.

4. Parlamentin üzvünün dövlət qulluğunda hər hansı vəzifə tutmaq və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ yoxdur. Parlamentin üzvü ictimai fəaliyyətlə məşğul ola bilər. Parlamentin üzvü elmi, pedaqoji və bədii (incəsənət) fəaliyyətlə məşğul ola bilər, əgər bu fəaliyyətə inzibati funksiyaların yerinə yetirilməsi daxil deyilsə. Uyğunsuzluq halları Parlamentin reqlamenti ilə müəyyən edilir.

5. Parlamentin üzvünün səlahiyyətinin tanınması və ya vaxtından əvvəl xitam verilməsi məsələsini Parlament həll edir. Parlamentin bu qərarından Konstitusiya Məhkəməsinə şikayət verilə bilər. Parlamentin üzvünün səlahiyyətinə vaxtından əvvəl xitam verilir, əgər o:

a) səlahiyyətinə xitam verilməsi barədə şəxsi ərizə ilə Parlamentə müraciət edirsə;

b) statusuna uyğun olmayan vəzifə tutduqda və ya bir araya sığmayan fəaliyyətlə məşğul olduqda;

q) növbəti sessiya ərzində növbəti iclasların yarısından çoxunda üzrsüz səbəbdən iştirak etmədisə;

d) məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə günahkar bilinibsə;

e) məhkəmənin qərarı ilə o, dəstək alan şəxs kimi tanınıb və müvafiq stasionar tibb müəssisəsinə yerləşdirilibsə, məhkəmə tərəfindən itkin düşmüş hesab edilmiş və ya ölmüş elan edilmişsə;

v) vəfat etmişsə;

z) Gürcüstan vətəndaşlığını itirərsə;

t) Konstitusiya Məhkəməsinin qərarı ilə səlahiyyətinə xitam verilməli olduğu halda.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 40. Gürcüstan Parlamentinin sədri və sədr müavinləri**

1. Parlament öz səlahiyyətinin müddəti ilə Gürcüstan Parlamentinin sədrini reqlamentlə müəyyən edilmiş qaydada gizli səsvermə yolu ilə tam tərkibin səs çoxluğu ilə seçir. Parlamentin sədri Parlamentin işinə rəhbərlik edir, fikrin sərbəst ifadə olunmasını təmin edir, Parlamentin qəbul etdiyi aktları imzalayır,

reqlamentlə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir. Parlamentin sədri, reqlamentlə müəyyən edilmiş qaydada, Parlament Sarayında tam inzibati funksiyaları yerinə yetirir.

2. Parlament öz səlahiyyətinin müddəti ilə, reqlamentlə müəyyən edilmiş qaydada, tam tərkibin səs çoxluğu ilə, Parlamentin sədrinin birinci müavinini və müavinlərini seçir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 41. Parlamentin bürosu, komitələri və fraksiyaları**

1. Parlamentin işini təşkil etmək üçün tərkibinə Parlamentin sədrinin, sədr müavinlərinin, Parlament komitələrinin və Parlament fraksiyalarının sədrlərinin daxil olduğu Parlament Bürosu yaradılır.

2. Parlamentdə qanunvericilik məsələlərinin ilkin hazırlanması, qərarların icrasına dəstək, Hökumətin və Parlamentin qarşısında hesabat verən digər orqanların fəaliyyətinə Parlamentin nəzarət etməsi məqsədi ilə komitələr yaradılır.

3. Parlamentin üzvləri, reqlamentlə müəyyən edilmiş qaydada, Parlament fraksiyasında birləşə bilərlər. Fraksiya üzvlərinin sayı 7 nəfərdən az olmamalıdır. Bir siyasi partiyanın təqdimatı ilə seçilmiş Parlament üzvlərinin birdən çox fraksiya yaratmaq hüququ yoxdur. Fraksiyanın yaradılması və fəaliyyət qaydası, onun hüquqları Parlamentin reqlamenti ilə müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 42. Parlamentin istintaq və digər müvəqqəti komissiyaları**

1. İstintaq komissiyası və digər müvəqqəti komissiyalar reqlamentdə nəzərdə tutulmuş hallarda, habelə Parlamentin üzvlərinin ən azı beşdə birinin təşəbbüsü ilə Parlamentdə yaradılır.

2. Müvəqqəti komissiyanın yaradılması haqqında qərarı reqlamentlə müəyyən edilmiş qaydada Parlament qəbul edir. Müvəqqəti istintaq komissiyasının yaradılması haqqında qərar Parlamentin tam tərkibinin üçdə birinin dəstəyi ilə qəbul edilir. Parlament fraksiyaları müvəqqəti komissiyada ən azı bir üzvlə təmsil edilməlidirlər. Müvəqqəti komissiyada müxalifətin təmsilçiliyi komissiya üzvlərinin ümumi sayının yarısından az olmamalıdır.

3. İstintaq komissiyasının tələbi ilə onun iclasına gəlmək, habelə məsələnin araşdırılması üçün zəruri olan sənədləri və məlumatları təqdim etmək məcburidir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 43. Parlamentin üzvünün sualı və interpelasiyası**

1. Parlamentin üzvünün Hökumətə, Parlamentin qarşısında hesabat verən digər orqana, Hökumətin üzvünə, bütün səviyyələrdə olan ərazi vahidlərinin hakimiyyət orqanına, dövlət qurumuna sual ilə müraciət etmək (sual ünvanlamaq) səlahiyyəti var. Parlamentin üzvünün sualına vaxtında və dolğun (tam) cavab vermək məcburidir.

2. Parlament fraksiyası, parlamentin üzvlərinin ən azı yeddi nəfərdən ibarət qrupu Hökumətə, Parlamentin qarşısında hesabat verən digər orqana, Parlamentin iclasında verilən suala cavab verməyə borclu olan Hökumətin üzvünə interpelasiya qaydasında sual ilə müraciət etmək hüququna malikdir. Cavab Parlamentin müzakirə mövzusuna çevrilə bilər.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 44. Parlamentin sessiyası və iclası**

1. Parlament ildə iki dəfə növbəti sessiyada öz səlahiyyəti daxilində toplanır. Payız sessiyası sentyabrın birinci çərşənbə axşamı açılır və dekabrın üçüncü cümə günü bağlanır, yaz sessiyası isə fevralın ilk çərşənbə axşamı açılır və iyunun son cümə günü bağlanır.

2. Parlamentin sədrinin, Parlamentin üzvlərinin ən azı dörddə birinin və ya Hökumətin tələbi ilə, Gürcüstan Prezidenti Parlamentin sessiyaları arasındakı dövrdə növbədənkənar sessiyanı, növbəti sessiya

zamanı isə – növbədənkənar iclası çağırır. Yazılı tələb təqdim edildikdən sonra 48 saat ərzində çağırış aktı verilməsə, Parlament öz reqlamentinə uyğun olaraq, sonrakı 48 saat ərzində toplanır. Parlamentin növbədənkənar iclası yalnız təşəbbüsçünün müəyyən etdiyi gündəmə uyğun keçirilir və bitən kimi bağlanır.

3. Gürcüstan Prezidenti fövqəladə və ya hərbi vəziyyət elan edən kimi Parlament fövqəladə sessiyada toplanır. Fövqəladə sessiya bu vəziyyət ləğv edilənə qədər davam edir.

4. Parlamentin iclasları açıqdır. Parlament ayrı-ayrı məsələlərə baxarkən iclasda iştirak edənlərin əksəriyyəti, lakin tam tərkibin ən azı üçdə biri olmaqla, iclasın və ya iclasın bir hissəsinin qapalı elan edilməsi haqqında qərar qəbul edir. İclasın və ya iclasın bir hissəsinin bağlanması haqqında qərar qapalı qaydada müzakirə edilir və qəbul edilir. Parlamentin açıq iclasının protokolu açıqdır.

5. Parlamentin iclasında səsvermə açıq və ya gizlidir. Konstitusiyada və ya qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, səsvermə açıqdır.

6. Hökumətin üzvü, Parlamentin qarşısında hesabat verən vəzifəli şəxs (məmur), Parlamentin qarşısında hesabat verən orqanın rəhbəri səlahiyyətə malikdir, tələb olunduğu təqdirdə isə − borcludur: Parlamentin, onun komitəsinin və komissiyasının iclaslarında iştirak etsin, iclaslarda verilən suallara cavab versin və görülmüş işlər haqqında hesabat təqdim etsin. Belə vəzifəli şəxsi (məmuru), tələb olunduqdan dərhal sonra, Parlament, komitə və ya komissiya dinləməlidir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 45. Qanun yaradıcılığı və qərarların qəbul edilməsi qaydası**

1. Qanunvericilik təşəbbüsü hüququna malikdirlər: Hökumət, Parlamentin üzvü, Parlament fraksiyası, Parlament komitəsi, Abxaziya və Acarıstan muxtar respublikalarının ali nümayəndəlik orqanları, ən azı 25000 seçici. Hökumətin təqdim etdiyi qanun layihəsini elə onun tələbi ilə Parlament növbədənkənar müzakirəyə çıxaracaq.

2. Konstitusiya ilə qanunun qəbulunun başqa qaydası müəyyən edilməyibsə, qanun iclasda iştirak edənlərin əksəriyyəti, lakin Parlamentin tam tərkibinin ən azı üçdə biri tərəfindən dəstəkləndikdə qəbul edilmiş sayılır. Konstitusiya ilə üzvi qanunun qəbulunun başqa qaydası müəyyən edilməyibsə, üzvi qanun Parlamentin tam tərkibinin əksəriyyəti tərəfindən dəstəkləndikdə qəbul edilmiş sayılır.

3. Parlamentin digər qərarı, Konstitusiyada və ya qanunla başqa qərar qəbul etmə qaydası müəyyən edilməyibsə, iclasda iştirak edənlərin əksəriyyəti, lakin Parlamentin tam tərkibinin ən azı üçdə biri tərəfindən dəstəkləndikdə qəbul edilmiş sayılır. Konstitusiya sazişinin təsdiq edilməsi haqqında qərar Parlamentin tam tərkibinin ən azı beşdə üçü tərəfindən dəstəkləndikdə qəbul edilmiş sayılır.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 46. Qanunun imzalanması və dərc edilməsi**

1. Parlamentin qəbul etdiyi qanun 10 gün müddətində Gürcüstan Prezidentinə təqdim edilir.

2. Gürcüstan Prezidenti qanunu 2 həftə ərzində imzalayıb dərc edir və ya əsaslandırılmış şərhlərlə (iradlarla) Parlamentə qaytarır.

3. Gürcüstan Prezidenti qanunu geri qaytararsa, Parlament Gürcüstan Prezidentinin şərhlərini (iradlarını) səsverməyə qoyur. Şərhlərin (iradların) qəbulu üçün - bu növ qanunun ilkin qəbulu üçün müəyyən edilmiş səslərin eyni sayı kifayətdir. Şərhlər (iradlar) qəbul edilərsə, qanunun yekun redaksiyası 5 gün ərzində Gürcüstan Prezidentinə təqdim olunacaq, hansı ki 5 gün ərzində onu imzalayıb dərc edir.

4. Parlament Gürcüstan Prezidentinin şərhlərini (iradlarını) qəbul etməsə, qanunun ilkin redaksiyası səsverməyə qoyulur. Üzvi qanun və ya qanun Parlamentin tam tərkibinin əksəriyyəti tərəfindən dəstəkləndiyi halda qəbul edilmiş sayılır – Konstitusiyanın 19-cu maddəsinin 4-cü bəndində nəzərdə tutulmuş üzvi qanundan başqa, hansı ki Parlamentin tam tərkibinin ən azı üçdə ikisi tərəfindən dəstəkləndiyi halda qəbul edilmiş sayılır. Konstitusiya Qanunu Parlamentin tam tərkibinin ən azı dörddə üçü tərəfindən dəstəkləndiyi halda qəbul edilmiş sayılır. Qanun 3 gün ərzində Gürcüstan Prezidentinə təqdim edilir, hansı ki 5 gün ərzində onu imzalayıb dərc edir.

5. Parlament tərəfindən tam tərkibin ən azı üçdə ikisinin səs çoxluğu ilə qəbul edilmiş “Konstitusiyaya dəyişikliklər edilməsi haqqında” Konstitusiya Qanunu Gürcüstan Prezidentinə ötürüldükdən sonra 5 gün ərzində Prezident onu imzalayıb dərc edir, Parlamentə şərhlərlə (iradlarla) geri qaytarmaq hüququ olmadan.

6. Əgər Gürcüstan Prezidenti qanunu bu maddənin 2-ci bəndində müəyyən edilmiş müddətdə dərc etməmiş və əsaslandırılmış şərhlərlə (iradlarla) da Parlamentə qaytarmamışdırsa və ya bu maddənin 3-cü, 4-cü və ya 5-ci bəndində müəyyən edilmiş müddətdə qanunu dərc etməmişsə, müddət bitdikdən sonra 5 gün ərzində onu Parlamentin sədri imzalayıb dərc edir.

7. Eyni qanunla başqa müddət müəyyən edilmədikdə, qanun rəsmi orqanda dərc edildiyi gündən 15-ci gün qüvvəyə minir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 47. Beynəlxalq müqavilələr**

1. Parlament tam tərkibin səs çoxluğu ilə beynəlxalq müqavilələri ratifikasiya edir, denonsasiya edir və ləğv edir. Parlament bu maddənin 2-ci bəndinin “q” alt bəndində nəzərdə tutulmuş beynəlxalq müqaviləni tam tərkibin ən azı dörddə üçünün səs çoxluğu ilə ratifikasiya edir, denonsasiya edir və ləğv edir.

2. Ratifikasiyanı nəzərdə tutan beynəlxalq müqavilədən başqa, həm də elə beynəlxalq müqavilənin ratifikasiyası məcburidir, hansı ki:

a) Gürcüstanın beynəlxalq təşkilata və ya dövlətlərarası ittifaqa daxil olmasını nəzərdə tutur;

b) hərbi xarakter daşıyır;

q) dövlətin ərazi bütövlüyünə və ya dövlət sərhədinin dəyişdirilməsinə istinad edir (toxunur);

d) dövlətin borc alması və ya borc verməsi ilə əlaqədardır;

e) dövlətdaxili qanunvericiliyin dəyişdirilməsini, beynəlxalq öhdəlikləri yerinə yetirmək üçün zəruri olan qanunların qəbulunu tələb edir.

3. Digər beynəlxalq müqavilələr Parlamentə təqdim edilməlidir.

4. Konstitusiya Məhkəməsinə konstitusiya şikayəti (iddia ərizəsi) və ya təqdimat verildiyi halda, Konstitusiya Məhkəməsi qərar qəbul edənə qədər müvafiq beynəlxalq müqavilənin ratifikasiyası (təsdiq edilməsi) yolverilməzdir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 48. İmpiçment**

1. Konstitusiyanın pozulması və ya əməldə cinayət əlamətlərinin olması əsası ilə Gürcüstan Prezidentinin, Hökumətin üzvünün, Ali Məhkəmənin hakiminin, Baş prokurorun, Baş auditorun və ya Milli Bankın İdarə Heyətinin üzvünün impiçment qaydasında vəzifədən uzaqlaşdırılması (azad edilməsi) məsələsini qaldırmaq hüququna Parlamentin tam tərkibinin ən azı üçdə biri malikdir. Məsələ Konstitusiya Məhkəməsinə veriləcək, hansı ki ona bir ay müddətində baxıb, Parlamentə rəy təqdim edəcək.

2. Konstitusiya Məhkəməsi öz rəyində vəzifəli şəxs tərəfindən Konstitusiyanın pozulmasını və ya onun əməlində cinayət əlamətlərinin olmasını təsdiq etdikdə, rəy təqdim edildikdən sonra 2 həftə ərzində Parlament onun impiçment qaydasında vəzifəsindən uzaqlaşdırılması (azad edilməsi) məsələsinə baxır və səsvermə keçirir.

3. Bu qərar Parlamentin tam tərkibinin ən azı üçdə ikisi tərəfindən dəstəklənərsə, Gürcüstan Prezidenti impiçment yolu ilə vəzifəsindən uzaqlaşdırılmış (azad edilmiş) sayılacaq. Hökumətin üzvü, Ali Məhkəmənin hakimi, Baş prokuror, Baş auditor və ya Milli Bankın İdarə Heyətinin üzvü, əgər bu qərar Parlamentin tam tərkibinin əksəriyyəti tərəfindən dəstəklənərsə, impiçment yolu ilə vəzifədən uzaqlaşdırılmış (azad edilmiş) sayılacaq.

4. Parlament bu maddənin 2-ci bəndində müəyyən edilmiş müddətdə vəzifəli şəxsin impiçment yolu ilə vəzifəsindən uzaqlaşdırılması (azad edilməsi) haqqında qərar qəbul etmədikdə, eyni əsaslarla impiçment prosedurunun başlanması yolverilməzdir.

5. Bu maddədə sadalanan vəzifəli şəxslər, Hökumətin üzvü istisna olmaqla, yalnız impiçment yolu ilə vəzifədən uzaqlaşdırıla (azad edilə) bilərlər.

6. Fövqəladə və ya hərbi vəziyyət zamanı Gürcüstan Prezidentinin impiçment prosedurunun həyata keçirilməsi yolverilməzdir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

## Dördüncü fəsil. Gürcüstan Prezidenti

### Maddə 49. Gürcüstan Prezidentinin statusu

1. Gürcüstan Prezidenti Gürcüstanın dövlət başçısıdır, ölkənin birliyinin və milli müstəqilliyinin qarantıdır.

2. Gürcüstan Prezidenti Gürcüstanın Müdafiə Qüvvələrinin Ali Baş Komandanıdır.

3. Gürcüstan Prezidenti xarici əlaqələrdə Gürcüstanı təmsil edir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

### Maddə 50. Gürcüstan Prezidentinin seçilməsi qaydası

1. Gürcüstan Prezidentini 5 il müddətinə, debatlar olmadan (müzakirəsiz), açıq səsvermə ilə Seçki Kollegiyası seçir. Eyni şəxs yalnız iki dəfə Gürcüstanın Prezidenti seçilə bilər.

2. Gürcüstanda ən azı 15 il yaşamış, seçilmək hüququna malik olan, 40 yaşından Gürcüstan vətəndaşı Gürcüstanın Prezidenti seçilə bilər.

3. Seçki Kollegiyası, Gürcüstan Parlamentinin və Abxaziya və Acarıstan muxtar respublikalarının ali nümayəndəlik orqanlarının bütün üzvləri də daxil olmaqla, 300 üzvdən ibarətdir. Seçki Kollegiyasının digər üzvlərini, Gürcüstan Mərkəzi Seçki Komissiyasının üzvi qanun əsasında müəyyən etdiyi kvotalara uyğun olaraq, yerli özünüidarəetmənin nümayəndəlik orqanlarının tərkibindən müvafiq siyasi partiyalar adlandırırlar (irəli sürürlər). Kvotalar proporsional coğrafi təmsilçilik prinsipinə uyğun olaraq və proporsional qaydada keçirilən yerli özünüidarəetmə seçkilərinin nəticələrinin nisbətinə görə müəyyən edilir. Seçki Kollegiyasının tərkibini Gürcüstanın Mərkəzi Seçki Komissiyası təsdiq edir.

4. Gürcüstan Prezidentinin seçkiləri Parlament Sarayında keçirilir. Seçki Kollegiyasının ən azı 30 üzvü Gürcüstan Prezidentliyinə namizəd irəli sürmək hüququna malikdir. Seçki Kollegiyasının bir üzvü yalnız bir namizədin irəli sürülməsini dəstəkləyə bilər. Seçki Kollegiyasının bir üzvü yalnız bir namizədə səs vermək hüququna malikdir. Seçkilərin birinci turunda Seçki Kollegiyasının tam tərkibinin ən azı üçdə ikisinin səsini toplamış namizəd seçilmiş sayılacaq. Gürcüstan Prezidenti birinci turda seçilməsə, ikinci turda - birinci turda ən yaxşı nəticə göstərən 2 namizədə səs veriləcək. İkinci turda daha çox səs toplamış namizəd seçilmiş sayılacaq. Seçki Kollegiyasının tam tərkibinin yarısından çoxu iştirak edərsə, seçkilərin birinci və ya ikinci turu baş tutmuş sayılacaq. Əgər seçkilər baş tutmayıbsa və ya Seçki Kollegiyası Gürcüstan Prezidentini seçməyibsə, 30 gün ərzində Gürcüstan Prezidentinin yenidən seçkiləri keçiriləcək.

5. Gürcüstan Prezidentinin seçkiləri Gürcüstan Prezidentinin səlahiyyət müddətinin bitdiyi təqvim ilinin oktyabrında keçirilir. Gürcüstan Prezidentinin səlahiyyətinə vaxtından əvvəl xitam verildiyi halda, səlahiyyətinə xitam verildikdən 45 gün ərzində Gürcüstan Prezidentinin seçkiləri keçirilir. Seçki tarixi fövqəladə və ya hərbi vəziyyət dövrünə təsadüf edərsə (üst-üstə düşərsə), Gürcüstan Prezidentinin seçkiləri bu vəziyyətin ləğvindən sonra 45 gün ərzində keçirilir. Gürcüstan Prezidentinin seçki tarixi Parlament seçkilərinə və ya ondan əvvəlki aya təsadüf edərsə, Gürcüstan Prezidentinin seçkiləri yeni seçilmiş Parlamentin ilk iclasından sonra 45 gün ərzində keçirilir.

6. Gürcüstan Prezidentinin seçkilərini Parlament təyin edir, yenidən seçkilər istisna olmaqla, hansını ki Parlamentin sədri təyin edir.

7. Gürcüstan Prezidentinin seçilməsi qaydası və şərtləri üzvi qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 51. Gürcüstan Prezidentinin andı, səlahiyyətinə xitam verilməsi, toxunulmazlığı, uyğunsuzluğu və hüquq varisliyi (hüququnu əvəz etmək)**

1. Gürcüstanın yeni seçilmiş Prezidenti vəzifəyə başlamazdan əvvəl, seçildikdən sonra üçüncü bazar günü xalqa müraciət edir və and içir: „Mən, Gürcüstan Prezidenti, Allah və millət qarşısında and içirəm ki, Gürcüstanın Konstitusiyasını, ölkənin müstəqilliyini, birliyini və bölünməzliyini qoruyacağam, Prezident vəzifəsini vicdanla yerinə yetirəcəyəm, ölkəmin vətəndaşlarının təhlükəsizliyini və rifahını, xalqımın və vətənimin dirçəliş və qüdrətini təmin edəcəyəm (qayğısına qalacağam)".

2. Gürcüstanın yeni seçilmiş Prezidenti and içdikdən sonra Gürcüstan Prezidentinin səlahiyyətinə xitam verilir və Gürcüstanın yeni seçilmiş Prezidentinin səlahiyyət müddəti başlayır.

3. Gürcüstan Prezidenti toxunulmazdır. O, vəzifədə olarkən həbs (dustaq) edilə və ya cinayət məsuliyyətinə cəlb edilə bilməz.

4. Gürcüstan Prezidentinin başqa vəzifə tutmaq, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, hər hansı digər fəaliyyətə görə maaş (əmək haqqı) və ya başqa cür daimi ödəniş almaq hüququ yoxdur. Gürcüstan Prezidenti siyasi partiyanın üzvü ola bilməz.

5. Gürcüstan Prezidentinin öz səlahiyyətlərini həyata keçirə bilməməsi və ya Gürcüstan Prezidentinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verildiyi halda, Gürcüstan Prezidentinin vəzifələrini Parlamentin sədri yerinə yetirir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 52. Gürcüstan Prezidentinin səlahiyyətləri**

1. Gürcüstan Prezidenti:

a) Hökumətin razılığı ilə, xarici əlaqələrdə nümayəndəlik səlahiyyətlərini həyata keçirir, digər dövlətlərlə və beynəlxalq təşkilatlarla danışıqlar aparır, beynəlxalq müqavilələr bağlayır, digər dövlətlərin və beynəlxalq təşkilatların səfirlərini və digər diplomatik nümayəndələrini akkreditasiya edir; Hökumətin təqdimatı ilə Gürcüstanın səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir;

b) Gürcüstan Dövləti adından Gürcüstanın Apostol Avtokefal Pravoslav Kilsəsi ilə Konstitusiya Sazişi imzalayır;

q) Konstitusiyada və üzvi qanunla müəyyən edilmiş qaydada Parlamentin və yerli özünüidarəetmə orqanlarının seçkilərini təyin edir;

d) Hökumətin təqdimatı ilə Gürcüstan Müdafiə Qüvvələrinin komandanını vəzifəyə təyin və vəzifədən azad edir; Ali Ədliyyə Şurasının bir üzvünü təyin edir; üzvi qanunla müəyyən edilmiş hallarda və müəyyən edilmiş qaydada Gürcüstanın Mərkəzi Seçki Komissiyasının sədrinin və üzvlərinin vəzifəyə təyin olunmasında iştirak edir; Hökumətin təqdimatı ilə milli tənzimləyici orqanların üzvlüyünə namizədləri seçilmək üçün Parlamentə təqdim edir;

e) vətəndaşlıq məsələlərini üzvi qanunla müəyyən edilmiş qaydada həll edir;

v) məhkumları əfv edir (bağışlayır);

z) qanunla müəyyən edilmiş qaydada dövlət təltiflərini və mükafatlarını, ali hərbi, xüsusi və fəxri rütbələri, ali diplomatik dərəcələri verir;

t) Hökumətin təqdimatı və Parlamentin razılığı ilə, ərazi vahidinin nümayəndəlik orqanının fəaliyyətini dayandırmaq və ya onu buraxmaq səlahiyyətinə malikdir, əgər onun hərəkəti ölkənin suverenliyinə, ərazi bütövlüyünə, dövlət hakimiyyəti orqanlarının konstitusiya səlahiyyətlərinin həyata keçirilməsinə təhlükə yaradırsa;

i) Konstitusiya ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.

2. Gürcüstan Prezidenti Parlamentin, Hökumətin və ya ən azı 200000 seçicinin tələbi ilə, onun təyin edilməsi haqqında tələbi aldıqdan sonra 30 gün ərzində, Konstitusiya və qanunla müəyyən edilmiş məsələlər üzrə referendum təyin etmək səlahiyyətinə malikdir. Qanunu qəbul etmək və ya ləğv etmək üçün, amnistiya və ya əfv üçün, beynəlxalq müqavilənin ratifikasiyası və ya denonsasiyası ilə bağlı, eləcə də insanın əsas konstitusiya hüququnun məhdudlaşdırılmasını nəzərdə tutan elə bir məsələ ilə bağlı

referendum keçirilə bilməz. Referendumun təyin edilməsi və keçirilməsi ilə bağlı məsələlər üzvi qanunla müəyyən edilir.

3. Gürcüstan Prezidentinin xalqa müraciət etmək səlahiyyəti var. O, ildə bir dəfə Parlamentə ölkənin vəziyyətinin ən mühüm məsələlərinə dair məruzə təqdim edir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 53. Birgə (ortaq) imza**

1. Gürcüstan Prezidentinin hüquqi aktı Baş nazirin birgə imzasını tələb edir. Birgə imzanı tələb edən hüquqi akt yalnız birgə imzadan sonra dərc edilir və hüquqi nəticələr doğurur. Birgə imzalanmış hüquqi akta görə siyasi məsuliyyət Hökumətin üzərinə düşür.

2. Gürcüstan Prezidentinin hüquqi aktı birgə imza tələb etmir, hansı ki aşağıdakılarla bağlıdır:

a) Parlament seçkilərinin təyin edilməsi, Parlamentin buraxılması, Parlamentin sessiyasının və ya iclasının çağırılması;

b) Konstitusiya Sazişi bağlamaq;

q) qanunun imzalanması və dərc edilməsi, qanunun şərhlərlə (iradlarla) Parlamentə qaytarılması;

d) Baş nazirin təyin edilməsi; Ali Ədliyyə Şurasının üzvünün təyin edilməsi; Mərkəzi Seçki Komissiyasının sədrinin və üzvünün vəzifəyə təyin edilməsi; Milli Bankın İdarə Heyətinin üzvünün təqdimatı, Milli Bankın Prezidentinin təyin edilməsi; Konstitusiya Məhkəməsinin hakiminin təyin edilməsi;

e) dövlət təltiflərinin və mükafatlarının, fəxri rütbələrin (adların) verilməsi;

v) vətəndaşlıq məsələlərinin həlli;

z) məhkumların əfv edilməsi (bağışlanması);

t) Konstitusiya Məhkəməsinə və ya məhkəməyə müraciət etmək;

i) Gürcüstan Prezidentinin səlahiyyətlərinin həyata keçirilməsini təşkil etmək.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

## Beşinci fəsil. Gürcüstan Hökuməti

**Maddə 54. Hökumət**

1. Gürcüstan Hökuməti icra hakimiyyətinin ali orqanıdır, hansı ki ölkənin daxili və xarici siyasətini həyata keçirir.

2. Hökumət Parlamentin qarşısında hesabat verir və məsuliyyət daşıyır (cavabdehdir).

3. Hökumət Baş nazirdən və nazirlərdən ibarətdir.

4. Hökumətin səlahiyyətinin müəyyən bir sahəsində dövlət siyasətinin və idarəetmənin həyata keçirilməsini təmin etmək üçün nazirlik yaradılır və ona nazir rəhbərlik edir.

5. Hökumətin tərkibində bir və ya bir neçə dövlət naziri ola bilər. Xüsusi əhəmiyyət kəsb edən dövlət tapşırıqlarını yerinə yetirmək üçün, qanunla Dövlət naziri vəzifəsi yaradıla bilər.

6. Hökumətin üzvünün partiya vəzifəsindən başqa vəzifə tutmaq, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, elmi və pedaqoji fəaliyyətdən başqa fəaliyyətə görə ödəniş almaq hüququ yoxdur.

7. İnzibati-ərazi vahidlərinin ərazisində Hökumətin təmsil olunmasını təmin etmək üçün Hökumətə - dövlət nümayəndələrini təyin etmək səlahiyyəti verilir. Dövlət nümayəndəsinin səlahiyyəti qanunla müəyyən edilir.

8. Hökumətin strukturu və fəaliyyət qaydası qanunla müəyyən edilir, hansının ki layihəsini Parlamentə Hökumət təqdim edir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 55. Gürcüstanın Baş naziri**

1. Gürcüstanın Baş naziri Hökumətin başçısıdır.

2. Baş nazir Hökumətin fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirir, Hökumətin fəaliyyətini təşkil edir, nazirlərin fəaliyyətinə koordinasiya və nəzarəti həyata keçirir, Hökumətin hüquqi aktlarını imzalayır.

3. Baş nazir xarici əlaqələrdə Gürcüstanı təmsil edir, Gürcüstanın adından beynəlxalq müqavilələr imzalayır.

4. Baş nazir - nazirləri vəzifəyə təyin və vəzifədən azad edir. O, Baş nazirin birinci müavini vəzifəsini nazirlərdən birinə, habelə bir və ya bir neçə nazirə - Baş nazirin müavini vəzifəsini həvalə etmək səlahiyyətinə malikdir.

5. Baş nazir Hökumətin fəaliyyətinə görə Parlamentin qarşısında hesabat verir. O, ildə bir dəfə Parlamentə Hökumət proqramının icrasının gedişi haqqında məruzə, habelə Parlamentin tələbi ilə - Hökumət proqramının ayrıca hissəsinin icrasının gedişi haqqında hesabat təqdim edir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 56. Etimad bəyanatı**

1. Yeni seçilmiş Parlament tam səlahiyyətləri əldə edən kimi Hökumət Parlamentin qarşısında səlahiyyətini geri götürür və yeni Baş nazir təyin olunana qədər vəzifəsini icra etməyə davam edir. Baş nazirin istefası halında, Baş nazirin səlahiyyətinə istefadan dərhal sonra xitam verilir. Baş nazirin istefası və ya səlahiyyətinə başqa cür xitam verildiyi halda, Hökumət yeni Baş Nazir təyin olunana qədər vəzifəsini yerinə yetirməyə davam edir.

2. Hökumətin səlahiyyətinin götürülməsindən, habelə Baş nazirin istefasından və ya səlahiyyətinə başqa cür xitam verildikdən sonra 2 həftə ərzində Parlament - Parlament seçkilərində ən yaxşı nəticə göstərən siyasi partiya tərəfindən irəli sürülmüş Baş nazirlik vəzifəsinə namizədin təqdim etdiyi Hökumətə etimadını bildirir. Hökumətin tərkibi ilə birlikdə Hökumət proqramı da Parlamentə təqdim edilir. Etimad qazanmaq üçün Parlamentin tam tərkibinin əksəriyyətinin dəstəyi lazımdır.

3. Əgər Parlament müəyyən olunmuş müddətdə Hökumətə etimad göstərməsə, Gürcüstan Prezidenti müvafiq müddət bitdikdən sonra 2 həftədən tez və 3 həftədən gec olmayaraq Parlamenti buraxır və növbədənkənar Parlament seçkilərini təyin edir.

4. Gürcüstan Prezidenti Parlamenti buraxmayacaq və növbədənkənar Parlament seçkilərini təyin etməyəcək, əgər Parlament bu maddənin 2-ci bəndində müəyyən edilmiş müddət bitdikdən sonra 2 həftə ərzində, Parlamentin tam tərkibinin üçdə birindən çoxu tərəfindən irəli sürülmüş Baş nazirlik vəzifəsinə namizədin təqdim etdiyi Hökumətə tam tərkibin əksəriyyəti (səs çoxluğu) ilə etimadını bildirirsə.

5. Hökumətə etimad elan edildikdən sonra 2 gün ərzində Gürcüstan Prezidenti - Baş naziri, Baş nazir isə təyin edildikdən sonra 2 gün ərzində - nazirləri vəzifəyə təyin edir. Əgər Gürcüstan Prezidenti müəyyən edilmiş müddətdə Baş naziri təyin etməsə, o, təyin olunmuş sayılacaq.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 57. Etimadsızlıq bəyanatı**

1. Parlamentin Hökumətə etimadsızlıq bildirmək (elan etmək) səlahiyyəti var.

2. Parlamentin tam tərkibinin üçdə birindən çoxunun etimadsızlıq məsələsini qaldırmaq hüququ var. Təşəbbüsçülər etimadsızlıq məsələsini qaldırmaqla yanaşı, Baş nazirlik vəzifəsinə namizəd irəli sürəcəklər, Baş nazirlik vəzifəsinə namizəd isə Hökumətin yeni tərkibini Parlamentə təqdim edəcək. Hökumətin tərkibi ilə birlikdə Hökumət proqramı da Parlamentə təqdim olunacaq.

3. Əgər Parlament, məsələ qaldırıldıqdan sonra 7 gündən tez və 14 gündən gec olmayaraq, tam tərkibin səs çoxluğu ilə, yeni Hökumətə etimad elan edərsə, etimadsızlıq elan edilmiş sayılacaq. Yeni Hökumətə etimad elan edildikdən sonra 2 gün ərzində Gürcüstan Prezidenti - Baş naziri, Baş nazir isə özü təyin edildikdən sonra 2 gün ərzində - nazirləri vəzifəyə təyin edəcək. Gürcüstan Prezidenti müəyyən edilmiş müddətdə Baş naziri təyin etməsə, o, təyin olunmuş sayılacaq. Hökumətin səlahiyyətinə yeni Baş nazir təyin edildiyi andan xitam verilir.

4. Parlament etimadsızlıq məsələsini qaldırdıqdan sonra Hökumətə etimadsızlıq bildirməsə, sonrakı 6 ay ərzində həmin Parlamentin üzvləri tərəfindən etimadsızlıq məsələsinin qaldırılması yolverilməzdir.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 58. Baş nazirin təşəbbüsü ilə etimad bəyanatı**

1. Baş nazirin Hökumətə etimad məsələsini Parlamentin qarşısında qaldırmaq səlahiyyəti var.

2. Etimad məsələsi qaldırıldıqdan sonra 7-ci gündən tez və 14-cü gündən gec olmayaraq səsverməyə qoyulur. Əgər Parlament Hökumətə etimad göstərməsə, etimad göstərilmədikdən sonra 8-ci gündən tez və 14-cü gündən gec olmayaraq Gürcüstan Prezidenti Parlamenti buraxacaq və növbədənkənar Parlament seçkilərini təyin edəcək.

3. Gürcüstan Prezidenti Parlamenti buraxmayacaq, əgər Hökumətə etimad göstərilmədikdən sonra 7 gün ərzində, Parlament - Parlamentin tam tərkibinin üçdə birindən çoxu tərəfindən irəli sürülmüş Baş nazirlik vəzifəsinə namizədin təqdim etdiyi Hökumətə tam tərkibin əksəriyyəti (səs çoxluğu) ilə etimad bəyan edirsə. Hökumətin tərkibi ilə birlikdə Hökumət proqramı da Parlamentə təqdim olunacaq. Yeni Hökumətə etimad elan edildikdən sonra 2 gün ərzində Gürcüstan Prezidenti - Baş naziri, Baş nazir isə özü təyin edildikdən sonra 2 gün ərzində - nazirləri vəzifəyə təyin edəcək. Əgər Gürcüstan Prezidenti müəyyən edilmiş müddətdə Baş naziri təyin etməsə, o, təyin olunmuş sayılacaq. Hökumətin səlahiyyətinə yeni Baş nazir təyin edildiyi andan xitam verilir.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

## Altıncı fəsil. Məhkəmə hakimiyyəti və Prokurorluq

**Maddə 59. Məhkəmə hakimiyyəti**

1. Məhkəmə hakimiyyəti müstəqildir və onu Gürcüstanın Konstitusiya Məhkəməsi və Gürcüstanın Ümumi Məhkəmələri həyata keçirirlər.

2. Gürcüstanın Konstitusiya Məhkəməsi konstitusiya nəzarətinin məhkəmə orqanıdır. Onun yaradılması və fəaliyyət qaydası üzvi qanunla müəyyən edilir.

3. Ədalət mühakiməsini Ümumi Məhkəmələr həyata keçirirlər. Xüsusi məhkəmələr yalnız Ümumi məhkəmələr sistemində yaradıla bilər. Hərbi məhkəmə hərbi vəziyyət zamanı və yalnız Ümumi məhkəmələr sistemində tətbiq edilə bilər. Fövqəladə məhkəmələrin yaradılması yolverilməzdir. Ümumi məhkəmələrdə işlərə qanunla müəyyən edilmiş hallarda və müəyyən edilmiş qaydada andlı iclasçılar baxırlar. Ümumi məhkəmələrin sistemi, səlahiyyətləri və fəaliyyət qaydaları üzvi qanunla müəyyən edilir.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 60. Gürcüstan Konstitusiya Məhkəməsi**

1. Gürcüstan Konstitusiya Məhkəməsi məhkəmə hakimiyyətini konstitusiya hüquq icraatı qaydasında həyata keçirir.

2. Konstitusiya Məhkəməsi 10 il müddətinə təyin edilən 9 hakimdən ibarətdir, hansılardan ki 3 hakimi Gürcüstan Prezidenti təyin edir, 3 hakimi tam tərkibin ən azı beşdə üçünün səs çoxluğu ilə Parlament seçir, 3 hakimi isə Ali Məhkəmə təyin edir. Konstitusiya Məhkəməsinin hakimi 35 yaşından, ali hüquq təhsili, ən azı 10 il ixtisas üzrə iş təcrübəsi və yüksək peşəkarlıq səviyyəsi olan Gürcüstan vətəndaşı ola bilər. Konstitusiya Məhkəməsinin hakimi əvvəllər bu vəzifəni tutmuş şəxs ola bilməz.

3. Konstitusiya Məhkəməsi öz tərkibindən 5 il müddətinə Konstitusiya Məhkəməsinin sədrini seçir. Eyni şəxsin Konstitusiya Məhkəməsinin sədri kimi yenidən (təkrar) seçilməsi yolverilməzdir.

4. Konstitusiya Məhkəməsi üzvi qanunla müəyyən edilmiş qaydada:

a) fiziki şəxsin, hüquqi şəxsin və ya Xalq Müdafiəçisinin iddiası əsasında, Konstitusiyanın ikinci fəsli ilə tanınan əsas insan hüquqlarına münasibətdə normativ aktın konstitusiyaya uyğunluğunu yoxlayır;

b) Gürcüstan Prezidentinin, Parlamentin üzvlərinin ən azı beşdə birinin və ya Hökumətin iddiası əsasında, normativ aktın Konstitusiyaya uyğunluğu məsələsi barədə qərar qəbul edir;

q) Ümumi Məhkəmənin təqdimatı əsasında, Ümumi Məhkəmənin konkret işə baxarkən istifadə etməli olduğu və onun əsaslı fərziyyəsinə (ehtimalına) görə Konstitusiyaya zidd ola biləcək normativ aktın Konstitusiyaya uyğunluğu məsələsinə baxır;

d) Gürcüstan Prezidentinin, Parlamentin, Hökumətin, Ali Ədliyyə Şurasının, Baş prokurorun, Milli Bankın İdarə Heyətinin, Baş auditorun, Xalq Müdafiəçisinin və ya muxtar respublikanın ali nümayəndəlik və ya icra orqanının iddiası əsasında, müvafiq orqanın səlahiyyətinə dair davaya (mübahisəyə) baxır;

e) Gürcüstan Prezidentinin və ya Hökumətin iddiası, Parlamentin üzvlərinin ən azı beşdə birinin iddiası və ya təqdimatı əsasında, beynəlxalq müqavilənin Konstitusiyaya uyğunluğu məsələsinə baxır;

v) Gürcüstan Prezidentinin, Parlamentin üzvlərinin ən azı beşdə birinin və ya Hökumətin iddiası əsasında, siyasi partiyanın fəaliyyətinin konstitusiyaya uyğunluğu və bu siyasi partiyanın təqdimatı ilə seçilmiş nümayəndəlik orqanının üzvünün səlahiyyətinə xitam verilməsi məsələsinə baxır;

z) Parlamentin üzvlərinin ən azı beşdə birinin və ya müvafiq şəxsin iddiası əsasında, Parlamentin üzvünün səlahiyyətinin tanınması və ya vaxtından əvvəl xitam verilməsi haqqında Parlamentin qərarının Konstitusiyaya uyğunluğu məsələsinə baxır;

t) Gürcüstan Prezidentinin, Parlamentin üzvlərinin ən azı beşdə birinin və ya Xalq Müdafiəçisinin iddiası əsasında, referendumu və ya seçkiləri tənzimləyən normanın və bu norma əsasında keçirilməli və ya keçirilmiş referendumun və ya seçkilərin konstitusiyaya uyğunluğu ilə bağlı davaya (mübahisəyə) baxır;

i) yerli özünüidarəetmənin nümayəndəlik orqanının iddiası əsasında, Konstitusiyanın doqquzuncu fəslinə münasibətdə normativ aktın Konstitusiyaya uyğunluğuna baxır;

k) Konstitusiya ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.

5. Konstitusiya Məhkəməsinin qərarı qətidir (yekundur). Müvafiq qərarda aktın və ya onun bir hissəsinin qüvvəsini itirməsi üçün başqa, gec müddət müəyyən edilmədikdə, Konstitusiyaya zidd elan edilmiş akt və ya onun bir hissəsi Konstitusiya Məhkəməsi tərəfindən müvafiq qərarın dərc edildiyi andan qüvvəsini itirir.

6. Konstitusiya Məhkəməsinin müvafiq seçki ilinin ərzində seçkiləri tənzimləyən normanı Konstitusiyaya zidd elan etməsi, əgər bu norma müvafiq seçki ayına qədər 15 ay müddətində qəbul edilməmişdirsə, yolverilməzdir.

7. Konstitusiya Məhkəməsinin hakiminin vəzifəyə təyin edilməsi və onun səlahiyyətinə xitam verilməsi, habelə Konstitusiya hüquq icraatının və Konstitusiya Məhkəməsinin fəaliyyətinin digər məsələləri üzvi qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 61. Gürcüstan Ali Məhkəməsi**

1. Gürcüstan Ali Məhkəməsi kassasiya məhkəməsidir.

2. Ali Məhkəmənin tərkibi ən azı 28 hakimdən ibarətdir. Ali Məhkəmənin hakimlərini Ali Ədliyyə Şurasının təqdimatı ilə ömürlük, üzvi qanunla müəyyən edilmiş yaşa çatana qədər, tam tərkibin səs çoxluğu ilə, Parlament seçir.

3. Ali Məhkəmənin sədrini Ali Məhkəmənin üzvlərindən Ali Ədliyyə Şurasının təqdimatı ilə, 10 il müddətinə, tam tərkibin səs çoxluğu ilə, Parlament seçir. Eyni şəxsin Ali Məhkəmənin sədri kimi yenidən (təkrar) seçilməsi yolverilməzdir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 62. Hüquq icraatı (proses)**

1. Məhkəmə Gürcüstanın adından qərar çıxarır. Məhkəmənin aktlarını icra etmək (yerinə yetirmək) məcburidir. Məhkəmənin qərarını yerinə yetirməmək (icra etməmək) və ya onun icrasına mane olmaq qanunla cəzalandırılır.

2. Məhkəmənin qərarını qanunla müəyyən edilmiş qaydada yalnız məhkəmə ləğv edə, dəyişdirə və ya dayandıra bilər. Cəza çəkməkdən azad edilmənin və cəzanın çəkilməmiş hissəsinin yüngülləşdirilməsinin digər qaydaları qanunla müəyyən edilir.

3. Məhkəmədə işə açıq iclasda baxılır (müzakirə edilir). İşə qapalı iclasda baxılmasına yalnız qanunla nəzərdə tutulmuş hallarda yol verilir. Məhkəmənin qərarı açıq elan edilir.

4. Proses (hüquq icraatı) dövlət dilində aparılır. Dövlət dilini bilməyən şəxs tərcüməçi ilə təmin edilir.

5. Proses tərəflər arasında bərabərlik və rəqabət əsasında aparılır.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 63. Hakim**

1. Hakim öz fəaliyyətində müstəqildir və yalnız Konstitusiyaya və qanuna tabedir. Hakimə hər hansı təsir (təzyiq) və ya qərarların qəbul edilməsinə təsir göstərmək məqsədi ilə onun fəaliyyətinə müdaxilə qadağandır və qanunla cəzalandırılır. Heç kimin konkret iş üzrə hakimdən hesabat tələb etmək hüququ yoxdur. Hakimin müstəqilliyini məhdudlaşdıran bütün aktlar batildir (etibarsızdır).

2. Hakim toxunulmazdır. Onu cinayət məsuliyyətinə cəlb etmək, həbs etmək və ya dustaq olması, yaşayış yeri və ya iş yerində, avtomobilində axtarış və ya üzərində şəxsi axtarış aparmaq Ali Ədliyyə Şurasının, Konstitusiya Məhkəməsi hakiminin halında isə − Konstitusiya Məhkəməsinin razılığı olmadan yolverilməzdir. Cinayət törədilərkən onu görmək (cinayətin üstünə çıxmaq) halı istisnadır, bu barədə dərhal müvafiq olaraq Ali Ədliyyə Şurasına və ya Konstitusiya Məhkəməsinə məlumat verilməlidir. Buna görə Ali Ədliyyə Şurası və ya Konstitusiya Məhkəməsi razılıq vermədikdə, azadlığı məhdudlaşdırılmış hakim dərhal azad edilməlidir.

3. Hakimin və onun ailəsinin təhlükəsizliyini dövlət təmin edir.

4. Hakim vəzifəsi, elmi və pedaqoji fəaliyyət istisna olmaqla, başqa vəzifələrlə və ödənişli fəaliyyətlə bir araya sığmır. Hakim siyasi partiyanın üzvü ola bilməz, siyasi fəaliyyətdə iştirak edə bilməz.

5. Ümumi Məhkəmənin hakiminin işə baxılmasından kənarlaşdırılmasına, vəzifədən azad edilməsinə və ya başqa vəzifəyə keçirilməsinə yalnız üzvi qanunla müəyyən edilmiş hallarda yol verilir. Hakimin dəyişməzliyinə üzvi qanunla zəmanət verilmişdir. Məhkəmənin yenidən təşkili və ya ləğvi ömürlük təyin edilmiş hakimin vəzifəsindən azad edilməsi üçün əsas ola bilməz.

6. Ümumi Məhkəmənin hakimi 30 yaşından, müvafiq ali hüquq təhsili və ən azı 5 il ixtisas üzrə iş təcrübəsi olan Gürcüstan vətəndaşı ola bilər. Ümumi Məhkəmənin hakimi üçün əlavə ixtisas tələbləri üzvi qanunla müəyyən edilir. Ümumi Məhkəmənin hakimi üzvi qanunla müəyyən edilmiş yaşa çatana qədər ömürlük vəzifəyə təyin edilir. Hakim vicdan və səriştəlilik (kompetensiya) əlaməti ilə seçilir. Ali Ədliyyə Şurası hakim vəzifəsinə təyin etmək haqqında qərarı tam tərkibinin ən azı üçdə ikisinin səs çoxluğu ilə qəbul edir. Hakimin vəzifəyə təyin və vəzifədən azad edilməsi qaydası üzvi qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 64. Ali Ədliyyə Şurası**

1. Ümumi məhkəmələrin müstəqilliyini və səmərəliliyini təmin etmək, hakimləri vəzifəyə təyin və vəzifədən azad etmək və digər vəzifələri yerinə yetirmək məqsədi ilə Ümumi məhkəmələr sisteminin orqanı − Gürcüstan Ali Ədliyyə Şurası yaradılır.

2. Ali Ədliyyə Şurası 4 il müddətinə təyin edilən 14 üzvdən və Ali Məhkəmənin sədrindən ibarətdir. Ali Ədliyyə Şurasının üzvlərinin yarısından çoxu Ümumi məhkəmələrin hakimlərinin özünüidarəetmə orqanının hakimlər arasından seçdiyi üzvlərdir. Ali Ədliyyə Şurasının tərkibinə Ümumi məhkəmələrin hakimlərinin özünüidarəetmə orqanının seçdiyi üzvlərdən və Ali Məhkəmənin sədrindən əlavə, Gürcüstan Prezidentinin təyin etdiyi üzv və Parlament tərəfindən tam tərkibin ən azı beşdə üçünün səs çoxluğu ilə seçilmiş üzvlər daxildir. Ali Ədliyyə Şurasının sədrini Ali Ədliyyə Şurasının hakim üzvləri arasından, üzvi qanunla müəyyən edilmiş qaydada, 4 il müddətinə, lakin Ali Ədliyyə Şurasının üzvü kimi onun səlahiyyət müddətindən çox olmayaraq, Ali Ədliyyə Şurası seçir. Ali Ədliyyə Şurasının katibi Ümumi

məhkəmələrin hakimlərinin özünüidarəetmə orqanı tərəfindən onun seçdiyi üzvlər arasından 4 il müddətinə seçilir.

3. Ali Ədliyyə Şurası Ümumi məhkəmələrin hakimlərinin özünüidarəetmə orqanı qarşısında hesabat verir. Hesabatın verilməsi qaydası üzvi qanunla müəyyən edilir.

4. Ali Ədliyyə Şurasının səlahiyyətləri, yaradılma və fəaliyyət qaydası üzvi qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 65. Prokurorluq**

1. Gürcüstan Prokurorluğu öz fəaliyyətində müstəqildir və yalnız Konstitusiyaya və qanuna tabedir.

2. Prokurorluğa Baş Prokuror rəhbərlik edir, hansını ki Prokurorluq Şurasının təqdimatı ilə, üzvi qanunla müəyyən edilmiş qaydada, 6 il müddətinə, tam tərkibin səs çoxluğu ilə, Parlament seçir.

3. Prokurorluğun müstəqilliyini, şəffaflığını və səmərəliliyini təmin etmək üçün Prokurorluq Şurası yaradılır, hansı ki üzvi qanunla müəyyən edilmiş qaydada seçilmiş 15 üzvdən ibarətdir. Prokurorluq Şurasının sədrini Prokurorluq Şurası 2 il müddətinə seçir.

4. Prokurorluq hər il Parlamentə öz fəaliyyəti haqqında hesabat təqdim edir.

5. Prokurorluğun səlahiyyətləri, strukturu və fəaliyyət qaydası üzvi qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

## Yeddinci fəsil. Dövlət maliyyəsi və nəzarəti

**Maddə 66. Dövlət büdcəsi**

1. Parlament hər il tam tərkibin səs çoxluğu ilə Gürcüstanın Dövlət Büdcəsi Qanununu qəbul edir.

2. Əsas məlumatları və istiqamətləri Parlamentin komitələri ilə müzakirə etdikdən sonra, dövlət büdcəsinin layihəsini Parlamentə təqdim etmək səlahiyyəti yalnız Hökumətə verilir. Hökumət növbəti büdcə ili üzrə dövlət büdcəsi layihəsini büdcə ilinin sonuna ən geci 3 ay qalmış Parlamentə təqdim edir. Dövlət büdcəsinin layihəsi ilə birlikdə Hökumət cari ilin dövlət büdcəsinin icrasının gedişi haqqında məruzə təqdim edir. Hökumət dövlət büdcəsinin icrası haqqında hesabatı büdcə ili başa çatdıqdan sonra 5 aydan gec olmayaraq təsdiq üçün Parlamentə təqdim edir.

3. Dövlət büdcəsi haqqında qanun layihəsinə Hökumətin razılığı olmadan dəyişiklik edilməsi yolverilməzdir. Hökumət Parlamentdən əlavə dövlət xərclərinin ödənilməsini tələb edə bilər, əgər onun əhatə mənbəyini göstərərsə.

4. Cari büdcə ili üçün dövlət büdcəsinin xərclərinin artmasına, gəlirlərinin azalmasına və ya dövlətin yeni maliyyə öhdəlikləri götürməsinə səbəb olan qanunu Parlament yalnız Hökumətin razılığından sonra qəbul edə bilər, gələn büdcə ili ilə bağlı qanunu isə – Hökumətin razılığı ilə və ya Hökumətin Parlamentə təqdim etdiyi - ölkənin əsas məlumatları və istiqamətləri sənədinin çərçivəsində.

5. Əgər Parlament yeni büdcə ili başlayana qədər dövlət büdcəsini qəbul etməsə, xərclər qanunla müəyyən edilmiş qaydada, əvvəlki ilin dövlət büdcəsinə görə ödəniləcək (örtüləcək).

6. Dövlət büdcəsində Parlament üçün nəzərdə tutulan cari vəsaitlərin əvvəlki ilin büdcə vəsaitlərinin miqdarı ilə müqayisədə azaldılması yalnız Parlamentin əvvəlcədən razılığı ilə həyata keçirilə bilər. Dövlət büdcəsində Parlamentə ayrılan vəsaitlərin bölüşdürülməsinə dair qərarı Parlament özü qəbul edir.

7. Dövlət büdcəsi qanununu Konstitusiyanın 46-cı maddəsində müəyyən edilmiş qaydada Gürcüstan Prezidenti imzalayır və dərc edir. Gürcüstan Prezidentinin Dövlət Büdcəsi Qanunu ilə bağlı şərhlərinin (iradlarının) Parlament tərəfindən paylaşılmasına yalnız Hökumətin razılığı ilə icazə verilir.

8. Dövlət büdcəsinin tərtibi və qəbulu qaydası qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 67. Vergilər və rüsumlar, İqtisadi siyasət**

1. Qanunla müəyyən edilmiş miqdarda və qaydada vergilərin və rüsumların ödənilməsi məcburidir. Vergilərin və rüsumların strukturunu və tətbiqi qaydasını, onların dərəcələrini və ya dərəcələrinin əhatə dairəsini yalnız qanun müəyyən edə bilər. Vergidən azad olmağa yalnız qanunla icazə verilir. Vergi nəzarətini yalnız qanunla müəyyən edilmiş vergi orqanları həyata keçirirlər.

2. Uzunmüddətli və stabil iqtisadi artımı (yüksəlişi) təmin etmək üçün iqtisadi siyasətin əsas (təməl) prinsipləri üzvi qanunla müəyyən edilir. Makroiqtisadi parametrlərin müəyyən edilmiş hədlərinin pozulması və xüsusi zərurət yarandıqda hədlərin aşılması halları, habelə parametrlərin hədlərinə qayıtmaq məqsədi ilə həyata keçirilməli tədbirlər üzvi qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 68. Milli Bank**

1. Gürcüstanın Milli Bankı ölkənin monetar (pul) siyasətini qiymətlərin stabilliyinin təmin edilməsinə istiqamətləndirir (yönəldir) və maliyyə sektorunun stabil fəaliyyətinə kömək edir. Milli Bank bankların bankıdır, Hökumətin bankiri və fiskal agentidir.

2. Milli Bankın ali orqanı Milli Bankın İdarə Heyətidir, hansının ki üzvlərini Gürcüstan Prezidentinin təqdimatı ilə, tam tərkibin səs çoxluğu ilə, 7 il müddətinə, Parlament seçir. Milli Bankın Prezidentini Milli Bankın İdarə Heyətinin üzvlərindən Milli Bankın İdarə Heyətinin təqdimatı ilə, Gürcüstan Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

3. Milli Bank öz fəaliyyətində müstəqildir. Konstitusiyanın 69-cu maddəsində nəzərdə tutulmuş nəzarətə və kontrola Milli Bankın yalnız inzibati və kapital xərcləri tabedir. Milli Bank Parlamentin qarşısında hesabat verir və hər il ona öz fəaliyyəti haqqında hesabat təqdim edir.

4. Pul emissiyası (pul buraxmaq) hüququ yalnız Milli Banka məxsusdur. Pulun adı və vahidi üzvi qanunla müəyyən edilir.

5. Milli Bankın səlahiyyətləri, fəaliyyət qaydası və müstəqilliyinin qarantı üzvi qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 69. Dövlət Audit Xidməti**

1. Dövlət idarəçiliyinin səmərəliliyini və hesabatlılığını təşviq etmək üçün büdcə vəsaitlərinin və digər dövlət resurslarının istifadəsinə və xərclənməsinə Dövlət Audit Xidməti nəzarət edir. O, digər dövlət maliyyə-təsərrüfat kontrolu orqanlarının fəaliyyətini yoxlamaq, vergi qanunvericiliyinin təkmilləşdirilməsinə dair Parlamentə təkliflər təqdim etmək səlahiyyətinə də malikdir.

2. Dövlət Audit Xidmətinə Baş Auditor rəhbərlik edir, hansını ki Parlament sədrinin təqdimatı ilə, tam tərkibin səs çoxluğu ilə, 5 il müddətinə, Parlament seçir.

3. Dövlət Audit Xidməti öz fəaliyyətində müstəqildir.

4. Dövlət Audit Xidməti Parlamentin qarşısında hesabat verir. İldə iki dəfə, büdcənin icrası haqqında ilkin hesabatın və tam hesabatın təqdimatı zamanı, Dövlət Audit Xidməti Parlamentə Hökumətin hesabatı ilə bağlı məruzə, ildə bir dəfə isə − öz fəaliyyəti haqqında hesabat təqdim edir.

5. Dövlət Audit Xidməti Parlament tərəfindən dövlət vəsaitlərinin idarə edilməsinə nəzarəti təmin edir.

6. Dövlət Audit Xidmətinin səlahiyyəti, strukturu, fəaliyyət qaydası və müstəqilliyinin qarantı üzvi qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

## Səkkizinci fəsil. Dövlətin müdafiəsi və təhlükəsizliyi

**Maddə 70. Müdafiə Qüvvələri**

1. Müdafiə müharibəsi Gürcüstanın suveren hüququdur.

2. Gürcüstanı qorumaq hər bir Gürcüstan vətəndaşının borcudur. Hərbi xidmətdən keçmək qaydası qanunla müəyyən edilir.

3. Ölkənin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün, habelə Konstitusiya ilə nəzərdə tutulmuş hallarda müdafiə və təhlükəsizliklə bağlı digər vəzifələri (tapşırıqları) və beynəlxalq öhdəlikləri yerinə yetirmək üçün Gürcüstanın Müdafiə Qüvvələri var.

4. Müdafiə Qüvvələrinin növləri və tərkibi qanunla müəyyən edilir. Müdafiə Qüvvələrinin sayını Hökumətin təqdimatı ilə, tam tərkibin səs çoxluğu ilə, Parlament təsdiq edir.

5. Hərbi vəziyyət zamanı dövlət təhlükəsizliyinin və ictimai təhlükəsizliyin qorunmasına cavabdeh olan orqanlar fərmanla Müdafiə Qüvvələrində birləşdirilə bilər.

6. Müdafiə Qüvvələri, qanunla müəyyən edilmiş qaydada, Müdafiə nazirinin əmri ilə, fövqəladə və ya hərbi vəziyyət zamanı isə − Baş nazirin əmri ilə hərəkət edirlər.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 71. Fövqəladə və hərbi vəziyyət**

1. Gürcüstana silahlı hücum və ya onun bilavasitə təhlükəsi mövcud olduqda, Gürcüstan Prezidenti Baş nazirin təqdimatı ilə hərbi vəziyyət elan edir, müvafiq şərtlər altında sülh bağlayır və bu qərarları dərhal təsdiqlənmək üçün Parlamentə təqdim edir. Hərbi vəziyyətin elan edilməsi haqqında qərar hərbi vəziyyət elan edildiyi andan qüvvəyə minir. Parlament toplandıqdan dərhal sonra qərarı təsdiqləyir. Parlament qərarı təsdiq etməsə, səsvermədən dərhal sonra o, hüquqi qüvvəsini itirir.

2. Kütləvi iğtişaşlar, ölkənin ərazi bütövlüyünün pozulması, hərbi çevriliş, silahlı üsyan (qiyam), terror aktı, təbii və ya texnogen fəlakət və ya epidemiya zamanı və ya başqa halda, nə vaxt ki dövlət hakimiyyəti orqanları Konstitusiya səlahiyyətlərini normal həyata keçirmək imkanından məhrumdurlar, Gürcüstan Prezidenti Baş nazirin təqdimatı ilə, ölkənin bütün ərazisində və ya onun hər hansı bir hissəsində fövqəladə vəziyyət elan edir və bu qərarı dərhal təsdiqlənmək üçün Parlamentə təqdim edir. Qərar fövqəladə vəziyyət elan edildiyi andan qüvvəyə minir. Parlament toplandıqdan dərhal sonra qərarı təsdiqləyir. Parlament qərarı təsdiq etməsə, səsvermədən dərhal sonra o, hüquqi qüvvəsini itirir. Fövqəladə səlahiyyətlər yalnız fövqəladə vəziyyət elan edilmiş əraziyə şamil edilir.

3. Hərbi və ya fövqəladə vəziyyət zamanı Gürcüstan Prezidenti Baş nazirin təqdimatı ilə, üzvi qanun qüvvəsi olan fərmanlar verir, hansılar ki müvafiq olaraq hərbi və ya fövqəladə vəziyyət ləğv edilənə qədər qüvvədə olur. Milli Bankın səlahiyyəti ilə bağlı fərman Milli Bankın Prezidentinin razılığı ilə verilir. Fərman dərc olunduğu andan qüvvəyə minir. Fərman dərhal Parlamentə təqdim edilir. Parlament toplandıqdan dərhal sonra fərmanı təsdiqləyir. Parlament fərmanı təsdiq etməsə, səsvermədən dərhal sonra o, hüquqi qüvvəsini itirir.

4. Fövqəladə və ya hərbi vəziyyət zamanı Gürcüstan Prezidentinin ölkədə və ya onun hər hansı bir hissəsində Konstitusiyanın 13, 14, 15, 17, 18, 19, 21 və 26-cı maddələrində sadalanan hüquqları fərmanla məhdudlaşdırmaq hüququ var. Fövqəladə və ya hərbi vəziyyət zamanı Gürcüstan Prezidentinin ölkədə və ya onun hər hansı bir hissəsində Konstitusiyanın 13-cü maddəsinin 2-ci-6-cı bəndlərinin, 14-cü maddəsinin 2-ci bəndinin, 15-ci maddəsinin 2-ci bəndinin, 17-ci maddəsinin 3-cü, 5-ci və 6-cı bəndlərinin, 18-ci maddəsinin 2-ci bəndinin və 19-cu maddəsinin 3-cü bəndinin qüvvəsini fərmanla dayandırmaq hüququ var. Gürcüstan Prezidenti bu bənddə nəzərdə tutulmuş fərmanı dərhal təsdiq üçün Parlamentə təqdim edir. Hüququn məhdudlaşdırılması haqqında fərman - verildikdən dərhal sonra, normanın dayandırılması haqqında fərman isə − Parlament tərəfindən təsdiq edildikdən dərhal sonra qüvvəyə minir. Hüququn məhdudlaşdırılması haqqında fərman bu maddənin 3-cü bəndi ilə müəyyən edilmiş qaydada təsdiq edilir.

5. Fövqəladə və ya hərbi vəziyyət zamanı ümumi seçkilər keçirilmir. Ölkənin hər hansı bir hissəsində fövqəladə vəziyyətin tətbiqi halında, ölkənin qalan ərazisində seçkilərin keçirilməsi barədə qərarı Parlament qəbul edir.

6. Fövqəladə və ya hərbi vəziyyətin ləğvi haqqında qərar müvafiq vəziyyətin elan edilməsi və təsdiqi üçün müəyyən edilmiş qaydada qəbul edilir.

7. Bu maddədə nəzərdə tutulmuş məsələlər üzrə Parlamentin qərarı Parlamentin tam tərkibinin səs çoxluğu ilə qəbul edilir.
*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 72. Müdafiə Qüvvələrinin istifadəsi**

1. Hərbi vəziyyət zamanı Müdafiə Qüvvələrinin istifadəsi haqqında qərarı Baş nazir qəbul edir və bu qərar Parlamentin təsdiqini tələb etmir.
2. Fövqəladə vəziyyət zamanı Müdafiə Qüvvələrinin istifadəsi haqqında qərarı Baş nazirin təqdimatı ilə Gürcüstan Prezidenti qəbul edir və onu dərhal təsdiqlənmək üçün Parlamentə təqdim edir. Qərar Parlamentin təsdiqindən dərhal sonra qüvvəyə minir. Təbii və ya texnogen fəlakət və ya epidemiya zamanı Müdafiə Qüvvələrinin istifadəsi haqqında qərarı Baş nazir qəbul edir və bu qərar Parlamentin təsdiqini tələb etmir. Parlament təbii və ya texnogen fəlakət və ya epidemiya zamanı Müdafiə Qüvvələrinin istifadəsinə xitam verilməsi barədə qərar qəbul etmək səlahiyyətinə malikdir.
3. Beynəlxalq öhdəlikləri yerinə yetirmək üçün Müdafiə Qüvvələrinin istifadəsi barədə qərarı Hökumətin təqdimatı ilə Gürcüstan Prezidenti qəbul edir və onu dərhal təsdiqlənmək üçün Parlamentə təqdim edir. Qərar Parlamentin təsdiqindən dərhal sonra qüvvəyə minir.
4. Dövlətin müdafiəsi məqsədi ilə, xüsusi və qanunla nəzərdə tutulmuş hallarda, başqa dövlətin hərbi qüvvələrinin ölkəyə yeridilməsi (daxil olması), istifadəsi və hərəkəti haqqında qərarı Hökumətin təqdimatı ilə Gürcüstan Prezidenti qəbul edir. Qərar dərhal təsdiqlənmək üçün Parlamentə təqdim edilir və Parlamentin təsdiqindən dərhal sonra qüvvəyə minir.
5. Bu maddədə nəzərdə tutulmuş məsələlər üzrə Parlamentin qərarı Parlamentin tam tərkibinin səs çoxluğu ilə qəbul edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 73. Milli Müdafiə Şurası**

1. Hərbi vəziyyət zamanı müşavirə orqanı − Milli Müdafiə Şurası yaradılır, hansına ki Gürcüstan Prezidenti sədrlik edir. Milli Müdafiə Şurasının üzvləridir: Gürcüstan Prezidenti, Baş nazir, Parlamentin sədri, Müdafiə naziri və Müdafiə Qüvvələrinin komandanı. Gürcüstan Prezidentinin qərarına əsasən, Şuranın üzvü qismində Parlamentin və Hökumətin ayrı-ayrı üzvləri dəvət oluna bilərlər. Milli Müdafiə Şurası hərbi vəziyyət ləğv edilənə qədər fəaliyyət göstərir.
2. Milli Müdafiə Şurasının səlahiyyətləri və fəaliyyət qaydası qanunla müəyyən edilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

## Doqquzuncu fəsil. Yerli özünüidarəetmə

**Maddə 74. Yerli özünüidarəetmə orqanları, sərhədləri, hüquqi əsasları**

1. Gürcüstan vətəndaşları yerli əhəmiyyət kəsb edən işləri yerli özünüidarəetmənin nümayəndəlik və icra orqanları vasitəsilə həll edirlər. Nümayəndəlik orqanı ümumi, bərabər və birbaşa seçki hüququ əsasında, gizli səsvermə yolu ilə seçilir. İcra orqanları nümayəndəlik orqanlarının qərarlarını icra edirlər və onların qarşısında hesabat verirlər.
2. Özünüidarəetmə vahidi İctimai Hüququn Hüquqi Şəxsidir. Özünüidarəetmə vahidinin yaradılması, ləğvi və ya onun sərhədlərinin dəyişdirilməsi barədə qərarı müvafiq özünüidarəetmə vahidləri ilə məsləhətləşərək, Hökumətin təqdimatı ilə, Parlament qəbul edir.
3. Yerli özünüidarəetmə üzvi qanunla müəyyən edilmiş qaydada həyata keçirilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 75. Özünüidarəetmə vahidinin səlahiyyətləri**

1. Dövlət hakimiyyətinin və özünüidarəetmə vahidinin səlahiyyətləri bir-birindən ayrılır.

2. Özünüidarəetmə vahidi qanunvericiliyə uyğun olaraq bütün o məsələlər üzrə öz təşəbbüsü ilə qərar qəbul etmək səlahiyyətinə malikdir, hansı ki qanunla dövlət hakimiyyətinin və ya muxtar respublikanın xüsusi səlahiyyətinə aid deyil və hansının ki haqqında qərar qəbul etmək qanunla özünüidarəetmə vahidinin səlahiyyətindən kənarda qalmır (istisna edilmir).

3. Özünüidarəetmə vahidi öz səlahiyyətlərini müstəqil olaraq və öz məsuliyyəti ilə, Gürcüstan qanunvericiliyi çərçivəsində həyata keçirir. Üzvi qanunla müəyyən edilmiş öz səlahiyyətləri tam və eksklüzivdir.

4. Dövlət hakimiyyəti tərəfindən özünüidarəetmə vahidinə səlahiyyətin verilməsi qanunvericilik aktı və ya müqavilə əsasında, müvafiq maddi və maliyyə resursları verilməklə həyata keçirilir.

5. Dövlət hakimiyyəti özünüidarəetmə vahidinin fəaliyyətinə hüquqi nəzarəti həyata keçirir. Qərarların məqsədəuyğunluğunu təmin etmək məqsədi ilə özünüidarəetmə vahidinin fəaliyyətinə nəzarətə yalnız verilmiş səlahiyyət əsasında qəbul edilmiş qərarlara münasibətdə yol verilir. Dövlət nəzarəti üzvi qanunla müəyyən edilmiş qaydada, mütənasiblik prinsipinə uyğun olaraq həyata keçirilir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Maddə 76. Yerli özünüidarəetmənin zəmanətləri**

1. Özünüidarəetmə vahidinin öz əmlakı və maliyyəsi var.

2. Özünüidarəetmə vahidi öz təşkilati quruluşunu üzvi qanuna uyğun olaraq müstəqil şəkildə müəyyən edir, üzvi qanuna və dövlət qulluğunu tənzimləyən qanunvericiliyə uyğun olaraq kadrlarla bağlı qərarları müstəqil şəkildə qəbul edir.

3. Özünüidarəetmə vahidi öz səlahiyyətlərini həyata keçirmək üçün üzvi qanunla müəyyən edilmiş qaydada başqa özünüidarəetmə vahidi ilə əməkdaşlıq etmək hüququna malikdir. Özünüidarəetmə vahidi üzvi qanunla müəyyən edilmiş qaydada özünüidarəetmə vahidlərinin birliklərinə qoşulmaq (üzv olmaq) hüququna malikdir.

4. Dövlət hakimiyyəti orqanları özünüidarəetmə vahidləri ilə məsləhətləşərək yerli özünüidarəetmə ilə bağlı məsələlərə dair qərarlar qəbul edirlər. Məsləhətləşmənin aparılması qaydası üzvi qanunla müəyyən edilir.

5. Yerli özünüidarəetmə orqanının öz səlahiyyətləri çərçivəsində qəbul etdiyi qərarın icrası müvafiq özünüidarəetmə vahidinin ərazisində məcburidir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

## Onuncu fəsil. Konstitusiyanın yenidən nəzərdən keçirilməsi

**Maddə 77. Konstitusiyanın yenidən nəzərdən keçirilməsi qaydası**

1. Konstitusiya – Konstitusiya Qanunu ilə yenidən nəzərdən keçiriləcək, hansının ki layihəsini təqdim etmək hüququna Parlamentin tam tərkibinin yarısından çoxu və ya ən azı 200000 seçici malikdir.

2. Konstitusiya Qanununun layihəsi Parlamentə təqdim olunur və Parlament onu ümumi-xalq müzakirəsi üçün dərc edir. Qanun layihəsinin Parlamentdə müzakirəsinə onun dərcindən bir ay sonra başlanılır.

3. Konstitusiya Qanunu Parlamentin tam tərkibinin ən azı üçdə ikisi tərəfindən dəstəkləndiyi halda qəbul edilmiş sayılacaq. Konstitusiya Qanunu növbəti çağırış Parlamentində bir dinləmə ilə (bir oxunuşda) baxıldıqdan və tam tərkibin ən azı üçdə ikisi tərəfindən dəyişdirilmədən təsdiq edildikdən sonra 10 gün ərzində Gürcüstan Prezidentinə imzalanmaq üçün təqdim edilməlidir.

4. Konstitusiya Qanunu Parlamentin tam tərkibinin ən azı dörddə üçü tərəfindən dəstəklənərsə, Konstitusiyanın 46-cı maddəsi ilə müəyyən edilmiş müddət ərzində Gürcüstan Prezidentinə imzalanmaq üçün təqdim edilməlidir.

5. Ərazi bütövlüyünün bərpası ilə bağlı Konstitusiya Qanunu Parlamentin tam tərkibinin ən azı üçdə ikisinin səs çoxluğu ilə qəbul edilir və Konstitusiyanın 46-cı maddəsində müəyyən edilmiş müddətdə Gürcüstan Prezidentinə imzalanmaq üçün təqdim edilməlidir.

6. Konstitusiya Qanununu Konstitusiyanın 46-cı maddəsində müəyyən edilmiş qaydada Gürcüstan Prezidenti imzalayır və dərc edir.

7. Fövqəladə və ya hərbi vəziyyət elan edildiyi halda Konstitusiya Qanununun layihəsinə baxılması bu vəziyyət ləğv edilənə qədər dayandırılacaq.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

## On birinci fəsil. Keçid müddəalar

**Maddə 78. Avropa strukturlarına və Avro-Atlantik strukturlara inteqrasiya**

Konstitusiya orqanları Gürcüstanın Avropa İttifaqına və Şimali Atlantika Müqaviləsi Təşkilatına tam inteqrasiyasını təmin etmək üçün öz səlahiyyətləri çərçivəsində bütün tədbirləri görməlidir.

*Gürcüstanın 13 oktyabr 2017-ci il tarixli Konstitusiya Qanunu №1324 – veb-səhifə, 19.10.2017-ci il.*
*Gürcüstanın 23 mart 2018-ci il tarixli Konstitusiya Qanunu №2071 - veb-səhifə, 02.04.2018-ci il.*

**Gürcüstanın dövlət başçısı** **Eduard Şevardnadze.**

**Tbilisi**,
**24 avqust 1995-ci il**.
**№786-rs**